**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**MAGİSTRATURA MƏRKƏZİ**

*Əlyazması hüququnda*

**Fərhadova Mələkxanım Nasir qızı**

**“Ayaqqabı istehsalı müəssisələrində dizayn probleminin tədqiqi” mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** **050321 - “Dizayn”**

**İxtisaslaşma:** **“Dizayn və texniki estetika”**

**Elmi rəhbər:** **t.e.n.B.M.Məmmədov**

**Magistr proqramının rəhbəri:** **t.e.n.B.M.Məmmədov**

**Kafedra müdiri: s.ü.f.d.L.H.Məmmədova**

**BAKI – 2015**

# MÜNDƏRİCAT

**Səh.**

**GİRİŞ**…………………………………………………………………………....5

**FƏSİL I. AYAQQABININ KEYFİYYƏTİ İLƏ BAĞLI YARANAN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ**

1.1. Sənaye məhsulu bazarında ekspert fəaliyyətinin müasir vəziyyəti və inkişaf tendensiyası.........................................................................................................7

1.2. Ayaqqabının nöqsanları.........................................................................................12

1.3. Ekspert fəaliyyətinin müasir dövrdə iqtisadi inkişafı..........................................13

1.4. Ayaqqabı sənayesidə müasir bazası vəziyyətinin analizi....................................14

1.5. Ayaqqabı sənayesi məhsulunun inkişafı tendensiyasının analizi.........................21

1.6. İstehlakçıların tələblərinin ödənilməsi.................................................................22

1.7.Ayaqqabı satış məntəqələri......................................................................................24

1.8. Kişi yarımbotinkalarına olan tələbat həcminin stratifikasiyası............................27

**FƏSİL II. İCTİMAİ – İQTİSADİ FƏSİL**

2.1. Ekspert fəaliyyətinin inkişafı.................................................................................29

2.2. Bazarlarda sənaye məhsulunun ekspet fəaliyyətinin müasir vəziyyəti................29

2.3. Ekspertiza xidmətlərinin tarixi ikişaf aspektləri....................................................30

2.4. Ekspert fəaliyyəti müasir iqtisadiyyatın inkişaf elemnti kimi............................35

2.5.Bazarda əmtəə məhsulunun və onların inkişaf tendensiyalarının,yerli və xarici təcrübəsinin fəaliyyəti.........................................................................................36

2.6. Ayaqqabı sənayesinin müasir bazarını vəziyyətini təhlili...................................41

2.7. Kişi yarımbotinkalarına olan tələbatın həcminin müəyyən edilməsi.................44

**FƏSİL III. AYAQQABININ İSTEHSAL TEXNOLOGİYASI**

3.1. Keyfiyyətin kompleksli ekspertizası.....................................................................46

3.2. Zahiri görünüşünün təsviri.....................................................................................47

3.3. Kişi yarımbotinkalarının eyniləşdirilməsi.............................................................50

3.4. Keyfiyyət təhlili.......................................................................................................69

3.5. Kişi yarımbotinka ayaqqabısının zahiri görünüşünün təsviri..............................69

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**.........................................................................................72

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**.......................................................................73
**XÜLASƏ**..........................................................................................................75
**РЕЗЮМЕ**.........................................................................................................76
**SUMMARY**.......................................................................................................77

## GİRİŞ

Kişilərin qarderobunda ayaqqabı mühüm yer tutur və ən vacib əşyalardan biri sayılır. Onlar soyuq, həddindən artıq isti, nəmişlik, toz, palçıq və mexaniki zədələr kimi xarici mühitin xoşagəlməz təsirindən insan ayağını qorumaqla yanaşı, həmçinin insana bəzək əşyası kimi də xidmət edir.

Son zamanlar əhalinin alıcılıq qabiliyyəti yüksəlmiş, dəb və bazar konyukturası dəyişmişdir. Nəticəsində bir sıra müəssisələrin istehsal etdiyi məhsul çeşidi alıcı tələbatı və ticarət sifarişindən geri qalmağa başlamışdır. Bunun əsas səbəbi bəzi növ malların ayaqqabı modellərinin zahiri görünüşünün əlamətlərinə və onların layihə və istehsal realizasiyasının keyfiyyətinə görə alıcı tələbatına uyğun gəlməməsidir.

Ölkə iqtisadiyyatında baş verən dəyişikliklər ayaqqabı sənayesindədə yan keçməmişdir. Müasir əmtəə bazarında konkret vəziyyətin dərindən, hərtərəfli öyrənilməsi və onun dəyişdirilməsi perspektivi ayaqqabı istehsalının inkişafı və onun effektivliyinin yüksəlməsi üçün ayaqqabı keyfiyyətinin yüksəlməsinə səbəb olan araşdırmalara yetərincə əsərlər həsr olunmuşdur. Ayaqqabı keyfiyyətinin qiymətləndirilməsi sahəsində daha dolğun və proektləşdirmə mərhələsində istifadı şəraitinə daha yaxın tədqiqatların nəticəsi kimi Y.P.Zibin, V.A. Fukin, V.V. Kostılyova, V.P. Nestorov, L.A. Tonkovid, V.P. Konoval, V.T. Proxorov, Y.A. Kelrin, A.V. Pavlin, Q.V. Sergevin əsərlərini qeyd etmək olar. Onlar ayaqqabının alt hissəsi, iç və ara detalları üçün süni ayaqqabı materiallarının keyfiyyətinin artırılmasına dair tədqiqatlar aparmışlar.

Dərilərin keyfiyyətini V.V. Buzov və b. qiymətləndirirdilər. Ayaqqabı altlığının bərkidilməsi üsullarını İvanov M.N., Şaklanov İ.Q., Ponasenko V.A. Ayaqqabı keyfiyyətinin fiziki-mexaniki göstəricilərini Balekçyan Q.Q. və s. yoxlamışdır.

Sintetik içlik materialların üstünlüyü və nöqsanlarını aydınlaşdırmaq üçün bir sıra tədqiqatlar keçirilmişdir. Əsasən, bu Horfeld və Keniqfeldin ətraflı tədqiqatıdır. Ayaqqabı istehsalatında nəzarət keyfiyyətinin təşkilatı və texnikasına P.A. Kolesnikov, D.A. Kobılyanskinin əsərlərini həsr olunmuşdur. Ayaqqabının müəyyən

xüsusiyyətlərinə nəzarətin obyektiv üsullarının yaradılması ilə hal hazırda N.M. Çeçyotkina, T.İ. Putilina, V.V. Qorbunova məşğul olurlar.

İstehlakçı ekspertizasının problemləri S.A. Belyayev, S.Q. Babacanovun əsərlərində təfərrüatı ilə nəzərdən keçirilir.Yuxarıda qeyd edilənlər, əsasən, tədqiqat probleminin mənbəsidir.

Göstərilən problemin həll edilmə üsullarının tapılmasının zəruriliyi buraxılış ixtisas işinin mövzusunun müəyyənləşdirilməsi üçün əsas olunmuşdur. "Kişi yarımbotinkasının keyfiyyət göstəricilərinin kompleks qiymətləndirilməsi".

Yüngül sənaye məhsulunun istesal edilməsinin mühüm məsələlərindən biri də keyfiyyətə nəzarətin çatışmayan cəhədlərinin aradan qaldırılması üçün tədqiqat işlərinin aparılmasından ibarətdir.

Ayaqqabı sənayesi müəssisələrində fəaliyyətdə olan keyfiyyətə nəzarət bölməsi müasir dövrün tələblərinə uyğun gəlmir. Keyfiyyətli məhsulun istehsalı tamamilə mümkün olmur. Ayaqqabının texnoloji əməliyyatlarını yerinə yetirən icracı maddi marağının lazımlı səviyyədə olmaması məhsulun keyfiyyətinə təsir edir. Bununla əlaqədar olaraq ayaqqabı istehsalı prosesində onun keyfiyyətinə nəzarətə yeni tələblərlə baxılmasına ehtiyac duyulur. Nəzarətin kompleks problemlərinə nəzəri və təcrübü tədqiqin mühüm əhəmiyyəti vardır. Belə ki, bu sahədə olan bir cox anlayış və təsəvvürlər hələ də müayyən edilməmişdir. Elmi-texniki ədəbiyyatlarda keyfiyyətə nəzarətdə etibarlı üsulların, ayaqqabı sənayesində istehsal səviyyəsinin, keyfiyyətin tələb edilən səviyyədə təmin edilməsi haqqında bir cox fikirlər söylənilir.

Ayaqqabının istehsal proseslərində keyfiyyətin yaxşılaşdırılması istiqamətinə yönəldilmiş proqram tədbirləri bu sahədə görülən işlərin səviyyəsinin yüsəldilməsi aktual məsələrdən biridir.

Burada asas məqsəd ayaqqabının istehsal proseslərində keyfiyyətin yüksəldilməsi üçün proqramlaşdırılmış üsulunun tərtib edilməsindən ibarətdir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün magistrlik işində aşağıdakı məsələlər öz həllini tapmşdır:

- Nəzarət işlərinin təşkil edilmə prinsipinin aşkar edilməsi məqsədilə ayaqqabı istehsalında istifadə edilən əsas nəzarət növlərinin təhlili.

- Ayaqqabı istehsalı prosesində nəzarət proqramının tərtib edilməsi.
- Ayaqqabı istehsalında texnoloji əməliyyatların yerinə yetirilməsi üçün proqramlaşdırılmış nəzarət üsulunun tərtib edilməsi.

Texnolologi əməliyyatların yerinə yetirilmə keyfiyyətini nəzərə almaqla ayaqqabının kefiyyət proqramı tərtib edilmişdir. Proqram medodikasının təklifi çərçivəsində aşağıdakılar tərtib edilmişdi: texnoloji əməliyyatları dəqiq yerinə yetirən icraçılar arasında mükafatların bölünməsi üsulları. Bu məsələlərə dair tədqiqatların aparılması nəticəsində ənənəvi texnoloji obyektlərin nəzarət üsulundan fərqli olduğunu göstərir. Aparılan işlərin nəticəsi istehsal edilən ayaqqabıların keyfiyyətinin yüksəldilməsini təmin edir.

Ayaqqabı istehsalı proseslərində keyfiyyətə nəzarət edilməsi üçün tərtib edilmiş nəzarətin proqram üsulu icraçılar arasında əməyin, maddi və mənəvi stimullaşdırılmanı səmərəli bölüşdürülməsinə imkan verir. Bu üsul geniş istifadə imkanına malik olduğundan yüngül sənayenin digər sahələrində istehsal edilən digər məmulatların nəzarəti üçün də geniş istifadə edilə bilər.

# FƏSİL I. AYAQQABININ KEYFİYYƏTİ İLƏ BAĞLI YARANAN SOSİAL - İQTİSADİ VƏZİYYƏTİ

## 1.1. Sənaye məhsulu bazarında ekspert fəaliyyətinin müasir vəziyyəti və inkişaf tendensiyası

Ayaqqabı üçün qırx keyfiyyət standartı mövcuddur. Bu da mağaza və ya bazarda hər cür ayaqqabının qırx nəzarət məntəqəsindən ibarət keyfiyyət nəzarətindən keçməli olduğu deməkdir. Bunu etmək ayaqqabı istehsalçısının borcudur. Lakin, satışda olan mallar standartlardan çox uzaqdır.

Müstəqil istehlakçı ekspertizası mərkəzinin məlumatına əsasən ayaqqabı keyfiyyətindən ayda 300 yaxın adam şikayət edir. Bütün yoxlanılan ayaqqabıların 70%-dən çoxunda istehsal defekti var. Məhsulun 50%-ə yaxını İtaliyada istehsal olunmuş, 30%-da istehsalçı ölkə və firma göstərilməmişdir, ayaqqabıların 10%-i Çində istehsal olunmuşdur. Qalan 10%-i Avropa ölkələri, Amerika və Rusiya payına düşür.

Ayağın rahatlığına görə mütəxəssilər ayaqqabını ayağın uzunluğu və köklüyünə, həmçinin ayağın üst tərəfinə uyğun seçməsini məsləhət görürlər. Ayaqqabı köklüyə görə düz seçilməsə deformasiyaya uğraya bilər: ayaqqabının burnu yuxarı qalxır, daban arxaya çəkilir, yəni ayaqqabı geyilərək genəlmiş çarığa bənzəyir.

Satıcı ilə ayaqqabı keyfiyyəti barədə çəkişmə yaranarsa, bu mübahisəni müstəqil ekspertlər həll edə bilərlər. Əvvəlcə ekspert vizual olaraq ayaqqabını nəzərdən keçirir, onun keyfiyyətini qiymətləndirir və öz rəyini bildirir, yox əgər əlavə araşdırmalara ehtiyac olarsa ayaqqabını laboratoriyaya yollayırlar. Sonra ekspertiza aktın tərtib edir. Müəyyən edilən defekt istehsal defektidirsə keyfiyyətsiz ayaqqabının sahibi asanlıqla ekspert rəyi ilə satıcıya müraciət edə bilər. Adətən, satıcı pulları geri qaytarır və ya ayaqqabını başqası ilə əvəz edir. Defekt həmişə istehsal xarakteri daşımır. Təxminən on defektdən biri ayaqqabıdan düzgün istifadə edilmədikdə baş verir. Ekspertiza istehsal olunan malların keyfiyyətinin yüksəlməsinə və onların çeşidinin təkmilləşdirilməsində effktiv vasitə kimi çıxış edir. O, tədqiqatlar və sınaq

nəticələrinin qeydiyyatı əsasında ekspert üsullarından istifadə ilə analizin keçirilməsi və malın istehlakçı keyfiyyətinin qiymətləndirilməsi ilə bağlı olan xüsusi fəaliyyət növü kimi çıxış edir. Hər hansı bir fəaliyyət növü kimi ekspertizanın da subyekt, obyekt, kriteriyalar, metodlar, prosedur və nəticə kimi bir neçə əsas komponentlərindən ibarət öz strukturu var. Malların istehlakçı xüsusiyyətinin ekspertizasını ekspert komissiyasını təşkil edən təcrübəli mütəxəssis ekspertləri həyata keçirir. Ekspertlər tədqiq edilən mallar qrupunu yaxşı bilməli, onların keyfiyyətini qiymətləndirməkdə təcrübələri olmalıdır. Adətən ekspert komissiyaları iki qrupdan ibarət olurlar: ekspert və fəhlə. Peşəkar heyyət və bu qrupa daxil olan mütəxəssislərin sayı, onların strukturu və təşkili prinsipi ekspertizanın məqsəd və mərhələlərindən, qiymətləndirilən əşyanın xüsusiyyətlərindən, ekspertizanın keçirilməsi şəraitlərindən asılıdırlar və normativ sənədlərlə təyin edilirlər.

Normativ ekspertizasının xüsusiyyəti hər şeydən öncə onun yeni malların işlənib hazırlanmasının əsas mərhələlərindəki (texniki tapşırıq, layihə-konstruktor sənədləri, təcrübə nümunəsi) kimi, kütləvi buraxılış və məhsulun istehlakı prosesində keçirilməsidir (keyfiyyət kateqoriyasında əşyaların attestasiyası daxil olmaqla). Bundan başqa, operativ ekspertiza müəyyən növ mallar, onların istehlakçıları, istifadə şəraiti, sınaqların nəticələri və s. barədə əvvəlcədən toplanmış məlumatların istifadəsini; qısa müddətdə keçilməsini; malın keyifiyyətinin istehlakçı səviyyəsi haqqında ekspertlərin kollektiv rəyinin çıxarılmasını nəzərdə tutur. Yuxarıda verilənləri nəzərə alaraq, belə nəticəyə gəlmək olar. Ekspertiza malın istehlakçının mövqeyi domenant meyar (kriteriya) olan effektiv nəzarət vasitəsidir. Malın keyfiyyətini idarə etmə kompleks sisteminin elementi olan ekspertiza keyfiyyətsiz, mənən köhnəlmiş, rəqabətə tab gətirə bilməyən məhsulların istifadəsinə qarşı əngəl olmağa çalışmışdır. Digər növ iqtisadi sistemə keçidlə əlaqədar olaraq ekspertizada da və onun həyata keçirilməsi xüsusiyyətlərində yeni spesifika əmələ gəlir. On illərlə malların keyfiyyət ekspertizası əmtəəşünaslıq sahəsində müvəffəqiyyətlə fəaliyyət göstərməsinə baxmayaraq müasir reallıqlar bu proseslərə müəyyən dəyişikliklər daxil ediblər. Ekspertizanın öz rolu dəyişib. Yerli və xarici mallar arasında olan müasir rəqabət şərtləri Rusiya məhsullarına yeni keyfiyyət

standartlarını təqdim edir. Onu da nəzərə almaq lazımdır ki, hal-hazırda ekspertiza məhsulun texniki tapşırıq mərhələsindən başlayaraq, satış və istifadə, həmçinin attestasiya keçirilməsinə qədər bütün yaranma mərhələlərini əhatə edir. Ekspertiza yerli malları yalnız öz ölkəsində deyil həmçinin dünya bazarında ən keyfiyyətli mallar sırasına çatdırmağa imkan yaradan malların keyfiyyətini tənzimləyən vasitə olmalıdır.

"Ayaqqabının nöqsanlarının müəyyənləşdirilməsi və terminlər" DÖCT 27438-87-də ayaqqabını yararsız kimi qiymətləndirən 30-dan artıq istehsal qüsurlarını sadalayır. Məhsulun düzəldilməsi (dəyişdirilməsi) üçün geri qayıda və ya dərəcəsinin aşağı düşəbiləcəyinə səbəb olan çox saylı qüsurlar müəssisənin TNŞ nomenklaturasında öz əksini tapmışdır.

Daha keyfiyyətli ayaqqabı istehsalını təmin edən yeni texnologiyanın əsas prinsipləri aşağıdakılar olmalıdır.

- Əməliyyat və texnoloji calaqların minimal sayda olması;
- Eyni zamanda həyata keçirilən əməliyyat qruplarının mövcudluğu;
- Hər bir prosesin dolğunluğu elə dərəcədə olmalıdır ki, hər əməliyyatın texnoloji mərhələsində ayaqqabının istehsalında buraxılış mümkünlüyünü istisna etsin;
- Öncəki əməliyyatları düzəltmək və ya tamamlamağa yönəlmiş əməliyyatların olmaması;
- Texnoloji prosesin həyata keçirilməsi üçün xərclənən materialların tam ləğvi və ya minimuma salınması;
- Konveyerdə ayaqqabı detallarına (dəri və ya süni dəridən) verilmiş formalar və işləmələr üçün əlavə əməliyyatların olmaması;
- Daxili detallar üçün hazırda istifadə olunan materiallarla müqayisədə daha yaxşı möhkəm – elastik xüsusiyyətlərə malik olan, çox da qalın olmadığına görə qəlibin formasını yaxşı göstərən və qurutma tələb etməyən termoplastik materialların istifadəsi;
- Yapışdırma proseslərərində adegezivin həll etmə və qurudulmasını tələb etməyən yapışqan materialların istifadəsi; yapışqan tikişinin yapışqanın sürtülməsi və

preslənmə ilə bərabər əmələ gəlməsi; nazik yapışqan qatının eyni zamanda çəkilməsi; bir sıra hallarda detallarda nazik yapışqan qatların qabaqcadan əmələ gəlməsi;

- Altlıq detalların və biçilmiş ayaqqabı üzünün termodiffuziya prinsipi ilə işləyən avadanlıqda nəmləndirilməsi;
- Biçilmiş ayaqqabı üzündə bəzi xassələrin yapışqan və ya başma ilə əvəz edilməsi (bu öz növbəsində məhsulun keyfiyyət maraqlarına cavab verir və modelyerin estetik fikrini pozmursa);
- Yarımfabrikatların konveyerdə müxtəlif cür quruducu cihazlara yerdəyişməsi ilə bağlı əməliyyatların olmaması (ayaqqabı qəlibinin seçimi kimi əməliyyat)

Ayaqqabı keyfiyyətinin iqtisadi göstəriciləri. Bu əlaqə iqtisadi effektliyin ölçüsünün ayaqqabının keyfiyyət dərəcəsindən müəyyən asılılığından ibarətdir. Ayaqqabının sortu nə qədər yüksək olsa o qədər də onun assortimeti keyfiyyətli, qiymətidə yüksəkdir; əksinə aşağı keyfiyyətli və sadə görkəmli ayaqqabı ucuz qiymətlənir. Keyfiyyətin yaxşılaşdırılması tədbirlərinin işlənməsi üçün əsas mənbə kimi istehsalatda brak barədə məlumat, daxil olan reklamasiyalar, geyilmə zəmanət müddətini başa vurmayan ayaqqabı barədə məlumatlar çıxış edir. Tədbirləri hazırladıqda adətən yalnız öz müəssisəsinin təcrübəsindən deyil, həmçinin əlaqədar fabriklərin qabaqcıl təcrübələrindən, müəyyən sahələrə aid elmi-tədqiqat institutların zəmanətləri, habelə xarici təcrübədən istifadə edilir. Eyni zamanda müəssisələr qarşısında daimi reviziya, fəaliyyətdə olan texnologiyaların yenidən qiymətləndirilməsi, istehsalata daha müasir və effektiv texnoloji proseslərin yeridilməsi məsələsi durur. Əldə edilən analitik materialın və təsdiq edilmiş yeni modellərin əsasında (ölçü göstəricilərinin məlumatlarını nəzərə alaraq) keyfiyyətin yaxşılaşdırılması və icraçıların ixtisaslaşmasının yüksəlməsi tədbirlər qrafikinə uyğun olaraq və yuxarı təşkilatların direktivlərinə əsasən malın keyfiyyət göstəricilərinin kompleks planı tutulur. İstehlakçının məhsul keyfiyyətinə olan reaksiyası keyfiyyəti idarə etmənin zəruriliyini diktə edir. İstehlakçılar tərəfindən malın keyfiyyətini qiymətləndirən informasiya mənbələri müxtəlifdirlər. Keyfiyyəti

idarə etmə sistemində məlumatın əsas maddi daşıyıcısı texniki və digər səpkili sənədlərdir.

Keyfiyyətə aid sənədləri, əsasən, plan-direktiv, normativ-texnoloji, texniki nəzarət üzrə, hüququ və hesabat - məlumat hissələrə bölürlər. Hesabat informasiya sənədləri aşağıda göstərilən sahələr üzrə qərar qəbul etmək üçün lazımı məlumatlarla təmin edirlər:

- keyfiyyət göstəricisinə görə yerinə yetirilməsi;
- Qüsurların texnoloji tədqiqatları və öyrənilməsi;
- Fəhlələri yaxşı keyfiyyətli işə həvəsləndirmə;
- Brak məhsula görə maddi məsuliyyətə cəlb etmə;
- Alıcı və təchiz edənlərlə qarşılıqlı maliyyə münasibətləri;

Məhsulun keyfiyyəti nöqteyi nəzərindən müəssisə işinin iqtisada cəhətdən qiymətləndirilməsi. Buraxılan məhsulun keyfiyyətinin yüksəldilməsi və çeşidinin yeniləşdirilməsi ölkənin iqtisadi inkişafının zəzuri şərtlərindən biridir. «Məhsulun keyfiyyətini müntəzəm surətdə yüksəltmək iqtisadiyyatı inkişaf etdirməyin qəti tələbidir» Məhsulun keyfiyyəti nəinki əsas, həmdə mürəkkəb məsələdir. Müasir şəraitdə məhsulun keyfiyyət problemi ən mühim problemlərindən biridir. Keyfiyyətin yüksəldilməsi cəmiyyət miqyasında məhsul istehsalının kəmiyyətcə artmasına bərabərdir.

K.Marks göstərdiki, keyfiyyətli məhsul istehsal etmək cəmiyyət üçün məhsul istehsal etmək deməkdir. Yüksək keyyfiyyət dedikdə əməyi və maddi ehtiyatlara qənaət etmək, nəticə etibarilə cəmiyyətin tələbatını daha dolğun ödəmək başa düşülür. Buraxılan məhsulun keyfiyyətini yüksəltmək eyni zamanda böyük ehtiyyat mənbəyidir. Məhsulun keyfiyyətinin tələbatı ödəmək dərəcəsi onun istehlak dəyərindən asılıdır. İqtisadi baxımdan məhsulun keyfiyyət problemi ictimai istehsalın səmərəliyinin yüksəldilməsinin tərkib hissəsidir. Buraxılan məhsulun keyfiyyətinin yüksəldilməsi xalq təsərrufatına mühüm səmərə verir. Aparılan tədqiqatlar göstərir ki, buraxılan gön ayaqqabılarının hər cütünün istismar müddətini bir faiz artırmaq əlavə olaraq bir ildə 7 mln cüt ayaqqabı istehsal etmək deməkdir.

## 1.2. Ayaqqabının nöqsanları

Nəticədə keyfiyyəti idarəetmənin əsas məqsədi nöqsanların əmələgəlməsinin qarşısını almaqdır. Ayaqqabı üçün əhəmiyyətli qüsurların təsnifatına nəzər salaq Kritik defektlər – standartlara uyğun olmayan daha çox bilinən defektlərdir, və bu cür ayaqqabılar heç cür istifadə oluna bilməz. Böyük defektlər ayaqqabının istifadə müddətinin azalması və onun görkəminin pisləşməsinə səbəb ola bilərlər. Kiçik defektlər ayaqqabının möhkəmliyi və davamlığına təsir etmirlər, lakin görkəmində əhəmiyyətli dərəcədə özünü biruzə verirlər. Əhəmiyyətsiz defektlər yalnız mütəxəssis yoxlamasından sonra aşkar edilə bilər.

Ayaqqabı defektlərinin əmələgəlməsinin əsas səbəbləri bunlardır:

- Texnoloji prosesin pozulması;
- Keyfiyyətsiz əsas və ya köməkçi materialların istifadəsi;
- Avadanlıq işinin qənaətbəxş olmaması, ləvazimat və alətlərin pis vəziyyətdə olması;
- Məmulat konstruksiyasının texnoloji olmaması;
- Təşkilat rejiminin pozulması;
- Hazır məhsulun pis saxlanması, qablaşdırılması və daşınması;

Ayaqqabıda olan nöqsanları aşağıdakılara bölmək olar:

- Əmələ gəlməsi gözlənilən nöqsanlar;
- Əmələ gəlməsi əsassız olan nöqsanlar;
- Əsasən kritik və böyük olan gizli nöqsanlar;

Bütün aradan qaldırılmayan defektlər əslində kritikdirlər. Onu da qeyd etmək lazımdır ki, malın keyfiyyəti ona xas olan fiziki,kimyəvi və bioloji xassələr kompleksindən,həmçinin, malın funksional,estetik,oqronomik və digər tələblərə müvafiq olmasından asılıdır.

İstehsal olunan ayaqqabının keyfiyyət analizi aşağıdakıları təmin etməlidir.

- Onun istehlak xüsusiyyətləri, modelləri və fasonlarının əhalinin tələbatına uyğunluğunun üzə çıxarılması;

- Ən yaxşı yerli və xarici nümunələri nəzərə alaraq ayaqqabının keyfiyyət dərəcəsini müəyyən etmək;

İstehsal olunan məhsulun, texniki şərtlərə, mövcud nümunələrə və fabrikdaxili texniki sənədlərə uyğun gəlməməsini aşkara çıxarılmasını;

Yekun nəzarət, reklamasiya və zay aktlarından savayı laboratoriya analizinin nəticələrinə əsasən defektlərin aşkara çıxarılması;

Məhsulun keyfiyyətini yaxşılaşdırmaq üçün nəzərdə tutulmuş tədbirlərin işlənib hazırlanmasında daha effektiv istiqamətləri müəyyən etmək;

Ayaqqabı keyfiyyətini yaxşılaşdırmağa işlənib hazırlanan tədbirlərin məqsədəuyğunu texniki və iqtisadi cəhətdən əsaslandırılması;

Yüksək keyfiyyətli mal insanların istehlak tələbini daha dolğun ödəyir və böyük sorğuya malik olur, əksinə aşağı keyfiyyətli mallar isə özünə alıcı tapa bilmir. Nəticə etibarilə keyfiyyətsiz mallar ticarət şəbəkələrində yığılıb qalmaqla xalq təsərrüfatına böyük ziyan vurur. Sənaye sahəsində görkəmli mütəxəssiz hesab edilən professor Q.P.Zıbin ayaqqabının keyfiyyət kriteriyasını təyin edərkən ayaqqabının rahat, möhkəm, gigienik,gözəl «yaraşıqlı» və ucuz başa gəlməsini əsas götürmüşdür. Yuxarıda deyilənlərdən aydın olur ki, sənaye mallarının keyfiyyətinə verilən əsas tələblər məmulatın ucuz başa gəlməsilə bərabər, istehlakcının həyat tələbatını nümunəvi ödəməsindən də ibarətdir. Mütəxəssislərin fikrincə keyfiyyətin optimal kriteriyası, minimum ictimai zəruri əmək, enerji və material sərf etməklə maksimum dərəcədə yararlı, rahat və gözəl məmulat hazırlamaqdan ibarətdir. Ayaqqabı müəsisələrində istehsalın texniki səviyyəsi inkişaf etdikcə əhalinin mədəni səviyyəsi və məhsulun istehlak xassələrinə verilən tələblər yüksəldikcə məmulatın konstruksiyası da təkmilləşdirilir.

### 1.3. Ekspert fəaliyyətinin müasir dövrdə iqtisadi inkişafı

Müxtəlif təyinatlı ayaqqabılara irəli sürülmüş tələblər kompleksinin mürəkkəbliyi, materialların böyük çeşidi, həmçinin ayaqqabı istehsalatında, geymə müddətində onlara təsirin çətinliyi və müxtəlifliyi, onların keyfiyyətinin

qiymətləndirilməsi sisteminin yaradılması və mükəmməlləşdirilməsinə dair işlərin daim aparılması zərurətini qabaqcadan müəyyən etmək.

Ayaqqabı keyfiyyətinin ekspertizası üsulları müxtəlifdir. Ekspertin obyektivliyi onun səriştəliliyinə əsaslanır ki, lazımi qədər və vacib informasiyalardan istifadə edib malların qərərsiz qiymətləndirilməsinə nail olsun. Qoyulmuş məqsədlərdən asılı olaraq onların metodika və üsulları dəyişir. Ən obyektiv metod alət metodudur. Ondan yeni material və malların konstruksiyalarının işlənib hazırlanmasında, ayaqqabı müəssisələrində istehsal olunan ayaqqabıların keyfiyyət nəzarətinə zamanı geniş istifadə edirlər. O, xüsusi bilik və aparaturalar tələb etdiyinə görə ayaqqabının keyfiyyəti detallara bölünmədən, görkəmi dəyişmədən (uzunluq ölçüləri vasitəsi ilə detalların simmetrik olmasının yoxlanılması, çəkisi və s.) və bölünərək, görkəmini dəyişərək biçilmiş ayaqqabı üzünün detallarının bərkidilməsinin möhkəmliyi analizi, altlıq daban və dabanın alt qatının bərkidilməsi zamanı və s.)

Ayaqqabı keyfiyyətinin sosial qiymətləndirmə metodu topdan alanlar və ayaqqabı istehsalçıları üçün vacibdir. Əhali sorğusu əsasında onlar müvafiq qaydada nə almaq və nəcə ayaqqabı istehsal etmək kimi problemləri həll edirlər.

Hansı səbəbdən müəyyən malın alınıb alınmaması, potensial alıcının nə almaq istədiyi aşkar olunur. Ayaqqabı barədə istehlakçı oriyentasiyalarının öyrənilməsi onun istismar olunduğu yerin və xüsusiyyətlərinin müəyyən edilməsi və alıcı üçün zəruri olan keyfiyyəti qiymətləndirmə kriterilərin nəzərdən keçirilməsini daxil edir. Ayaqqabının istehlakçı keyfiyyətinin araşdırılması bu malda istehlakçı nə görmək istərdi sualının həlli zamanı keçirilir. Araşdırma məsələləri ayaqqabı keyfiyyətinin ümumi prinsiplərinə aid olduğu kimi konkret modellərin də qiymətləndirilməsinədə aid edilə bilər.

## 1.4. Ayaqqabı sənayesində müasir bazası vəziyyətinin analizi

Ölkədə satılan ayaqqabıların təxminən yarısı natural ifadədə qadın ayaqqabısının payına düşür, ikinci yerdə uşaq ayaqqabı, üçüncü yerdə kişi

ayaqqabısının satışı durur. Ayaqqabını, əsasən, Çin təchiz edir. 80% natural və bütün idxalın dəyər ifadəsinin 70%. Digər təchizatçıları arasında İtaliya, Türkiyə və Almaniyadır. Ayaqqabı bazarı az öyrənilmiş və kifayət qədər qapalıdır. On liderdən heç biri hal-hazırda bazarın 1%-dən artığını tutmur. Ölkədə tanınmış ayaqqabı markaları olduqca azdır. Federal səviyyədə istehlakçılara yalnız ECCO, Ralf Ringer, Sibirdə isə "Вестфалика" tanışdır. İri şirkətlərin illik gəlirti $ 100 milion çərçivəsindədir.

Ölkədə ayaqqabı istehsal etmək olduqca çətindir. Kompleklaşdiricilər bazarı inkişaf etməmişdir. Ölkədə cəmi 3-4 güclü gön-dəri zavodu mövcuddur. Astar üçün xəz istehsalları yoxdur. Altlıq və ayaqqabı qəlibi istehsalçıları azdır.

Çində ayaqqabı istehsal etmək sərfəlidir. Xamamal, kompleklaşdirmə və ucuz fəhlələr çoxdur. Ümumiyyətlə istehsalçılar çoxdur. Onlar istehsalat həmçinin böyüklüyü və kooperasiyanın yüksək dərəcəsi hesabına ayaqqabının maya dəyərini aşağı sala bilirlər. Onlar fabrikləri arasında dəqiq ixtisaslaşma mövcuddur. Kimsə press-formalar, kimsə altlıq, kimsə biçilmiş ayaqqabı üzünü yığır.

Ayaqqabının sənaye istehsalının miqyası çox az olduğundan komplektləşdirici məhsullar və materiallar bazarı yoxdur. Buna görə də ölkə ərazisində xüsusi avadanlıqlar istehsal olunmur. Sirr deyil ki, İtaliya markası sayılan malların bir hissəsi Rusiya məhsuludur. Lakin, xarici istehsalı kimi qələmə verən ayaqqabıların əksəriyyəti Rusiyada tikildiyi iddiası həqiqətə uyğun deyil. Əvvəllər satıcılar satdıqları malın Çində istehsal olunduğunu gizlədərək avropa və ya Rusiya ayaqqabısı kimi realizə edirdilər (məs., "СП Санкт-Петербург-Италия") Lakin bu gün ticarətdə,ələxsusda iri şəbəkələrdə ayaqqabının Çin istehsalı olduğun göstərməkdən çəkinmirlər. Artıq "Made in China" sözləri alıcıları qorxutmur. Çünki alıcı Asiya, Braziliya və Rusiyada keyfiyyətli ayaqqabı ilə yanaşı, keyfiyyətsiz ayaqqabı da istehsal oluna biləcəyini başa düşür. Hər şey sifarişçi tərəfdən olunan nəzarətin dərəcəsindən asılıdır. Əgər idxalatcı hər şeydə qənaət etməyə çalışsa, onda istehsalçıda sonuncu alıcının problemlərini düşünmədən, nə ucuzdursa ondan istifadə edəcək.

“Обеление”– son illər ölkə ayaqqabı bazarının əsas tendensiyasıdır. Lakin ekspertlər onun yaxın illər ərzində 100 % “ağarmadığına” əmindirlər. Ümumən gömrüklə vəziyyət stabildir. Stajı olan kampaniyalar gömrük nəzarətindən keçərkən bu və digər problemləri necə həll etmək yollarını bilirlər. Ölkədə istehsalçıları arasında liderlər beşliyinə “Юничел”, “Антилопа Про”, “Парижская комунна”, “Егорьевск-обувь” və “Спартак” fabrikləri daxildir. Ümumən isə Rusiyada 200 yaxın ayaqqabı fabriki var. Bunların çoxu komplektləşdiriciləri təchiz edən Analpa İnc.-in şöbələrinin biri ilə əməkdaşlıq edirlər. “Ümumrusiya biznes reytinqinin” məlumatı belədir. Qəribəsi budur ki, Rosstatın məlumatına əsasən ən iri istehsalçılar sayılan nə “Брис-Босфор”, nə Миуа, nə Ralf Ringer bu hit siyahiya düşməyiblər. “Юничел” 26 mağaza açaraq Çelyabinsk ayaqqabısının ən yaxşı sahibkarı olmuşdur. Zlatoustda yeni, kiçik uşaqlar üçün ayaqqabı istiqamətini işə salınıb. Elektrik enerji xərclərini azaltmaq məqsədi ilə öz şəxsi qaz qazanxanasının inşasını başlamışdır. “Парижская коммуна” İT- sistemini yeniləmişdir. Payız - qış kolleksiyasında model sayını 63% çoxaltmışdır. Uzunboğaz çəkmənin xeyrinə xalis dəridən çəkmələrin istehsal sayını azaltmışdır. “Xüsusi ayaqqabının idxal əvəzedici konstruksiya və texnologiyalarının işlənib hazırlanmasına görə” 2013-cü il elm və texnika sahəsi üzrə “Rusiya Federasiyası hökuməti mükafatı almaq üçün”. 2013-cü ilin dekabrinda “Спартак” qiymətli kağızların paylaşdırılmasını başlamışdır. Qapalı yazılmalar ilə alıcılara 10 rubl dəyərində 100 milion ədəd aksiya təklif olunmuşdur. Yeganə potensial alıcı kimi hazırki baş direktor Rayhat Qaripov qeydə alınmışdır. “Егорьевск-обувь” öz 75 illiyini qeyd etmişdir. İl boyu şirkət internet satış kanallarının öz portal və sosial şəbəkələrindən regional topdan satanların İT-sistemi ilə inteqrasiyaya qədər mənimsənilməsi ilə məşğul idi. Firma mağazalarının açılışı və öz əmtəə mal nişanının istifadəsinə nəzarətə dair şirkətin siyasətinin sərtləşməsi böyük müzakirələrə səbəb olmuşdur. “Антилопа” da məhs bu il hansı yeniliyin baş verdiyi və hansı nailiyyətlərinə görə onlara reytinq verilə biləcəyi tam aydın deyil. Mario Molinoro şirkətidə “ilin kəşfi” olmadı. İyul ayında belə bir xəbərdə yayıldı ki, şirkətin Sankt-Peterburq şəhərində yeni ayaqqabı

fabriki açılır, lakin heç bir fabrik hələ ki, açılmayıb. Müştərilərin təchizat müddəti barədə suallarını şirkət cavabsız qoyur. Lyubimidədə uşaq ayaqqabısı fabrikinin açılışı boşa çıxdı (“Ярославская обувь”). 2013-cü ildə Çinlilər günə 3000 cüt ayaqqabı həcmində istehsalı yüksəltməyi söz vermişdilər. Lakin bazarda malları çıxmadı. Amma Melenkada (Vladimir vilayəti) səssiz səmirsiz və pafossuz “Жанетт” şirkətinə məxsus ayaqqabı fabriki getdikcə inkişaf edir. İstehsalat 2012-ci ildə yerli kətan kombinatının yerində açılmışdır. Həmin Mario Molinarodakı 1500 $m^2$ şist və gündəlik ayaqqabı istehsalına verilib. Halbuki buda çətinliksiz ötüşməyib. İstehsalatı işə saldıqdan sonra şirkət, işçilərin mövsümü giləmeyvə-göbələk biznesini ayaqqabı sexində işləməydən üstün tuturlar hətta yaxşı məvacib müqabilində burada işləmək istəmədiyi kimi problemlərlə üzləşdi. Müdriyyət MDB-də olan mühaciratları dəvət etmək barədə ciddi düşünür. 2013-cü ildə ayaqqabı sənayesinin ən iri investproekti Özbəkistanınkı oldu. Sarxandərya, Daşkənd, Buxara, Namanqan, Andijan və Fərqanə vilayətləri, həmçinin Daşkənd və Qarakalpakda (müddət 2014-cü ilin sonuna qədər) 8 yeni ayaqqabı fabrikinin aşılışına $ 6 mln sərmayə qoymaq planlaşdırılır. 300 iş yeri açılacaq.

Ödəmə müddəti 6 ildir, istehsalat həcmi 2 mln cüt planlaşdırılır (300 min cüt ixracata). Ola bilsin ki, proekt bazarda digər informasiyanın olmamasına görə ən iri sayılır. Ayaqqabı sənayesi bütün yüngül sənaye sahələrindən texnoloji cəhətdən ən mürəkkəbidir. Ən müsair avadanlıqlarla təchiz edilmiş fabrikin imkanlarına malik olması, əlinin altında ən müasir materiallar, ən yeni dərilər olsa belə dizaynerin trend model yaratmağa təkcə həvəsi kifayət etmir. Çünki ayaqqabı onlarla komplektləşdiricilərdən ibarətdir. O cümlədən, bu müəssisə şəraitində, hətta ən qabaqcıl olsa belə, ayaqqabı qəlibi, daban kimi mürəkkəb detalların reallaşdırılması mümkün deyil. Eyni zamanda bu komplektləşdiricilər gələcək trend modelinin əsasını təşkil edirlər.

Rusiya bazarının problemi ondan ibarətdir ki, ayaqqabı istehsal edən fabrikləri barmaqla saymaq olar. Çində isə əksinə güclü dəri-ayaqqabı sektoru yaranıb. Çin fabriklərində sifarişləri yerləşdirən Rusiya kapitalının iştirakı ilə. Bu sərfəli,

rahat, əlverişlidir. Çünki orada ayaqqabı qəlibləri, material və furniturlu bütün infrastruktura artıq var Cədvəl 1-də Rusiyada ən iri ayaqqabı istehsalçıları qeyd olunmuşdu.

Ən çoxsaylı ayaqqabı istehsalçıları

Cədvəl 1.

| Loqotip | Adı | Təsviri |
|---|---|---|
| | Brado | Şirkət on ildən artıqdır ki, natural materiallardan keyfiyyətli qadın ayaqqabısı satışı ilə məşğul olur. Bizim modellərdə istifadə olunan ayaqqabı qəlibləri çox rahatdırlar. Ayaqqabı Sankt-Peterburq (Rusiya), Türkiyə və çində istehsal olunur. |
| | Burgerschuhe | Peterburq ayaqqabı şirkəti Burgerschuhe – Sankt-Peterburq və Rusiyanın şimal-qərbində rahat ayaqqabının ən böyük istehsalçısıdır. Şirkət fəlsəfəsinin təcəssümü olan Burgerschuhe məhsulunun yüksək keyfiyyəti mükəmməl komplektləşdirilmə və texnologiyaya güzəştsiz riayət etməklə əldə edilir. Burgerschuhe bu gün ayaqqabı istehsalının tam dövrəsidir: ayaqqabı qəlibi və komplektləşdiricilərdən tutaraq hazır modellərə qədər. Burgerschuhe bu gün 500-dən artıq partnyor-dükanlar da daxil edən federal distribusiya şəbəkəsidir. Burgerschuhe bü gün – Sankt-Peterburq və Leninqrad vilayətində 11 firma ayaqqabı mağazasıdır. “Антигололедˮ altlıqlı və “Аквастонˮ dərili ayaqqabı Burgerschuhenin vizit kartıdır. |
| | Gianmarco Benatti | Moskva ayaqqabı fabriki Metropolis öz şəxsi ticarət markası olan model qadın ayaqqabılarını istehsal edir və satır: METROPOLİSE –skye GİANMARCO BENATTİ iagoma. 15 il müddədində fabrikində iri |

| | | |
|---|---|---|
| | | ticarət şəbəkələrinin sifarişləri yerləşdirilir: Alba, Respekt və Tervolina. |
| | MİDİSA | "Midisa" şirkətlər qrupu 1994-cü ildən ayaqqabı istehsalı və topdan satışı ilə məşğul olur. Adlar assortimenti 1000 artıq kişi, qadın və uşaq ayaqqabı modellərini daxil edir. "Мидиса" şirkətlər qrupuna daxildir:<br>• MMC "Midisa", Moskva ş. – idarəetmə, topdan satış, təchizat, pərakəndə mağazalarla iş.<br>• MMC "Альмида", Moskva vilayəti, Puşkino ş. "Almi" ticarət markasının tökmə üsulu ilə bərkidilən ayaqqabının istehsalı.<br>• ASC "Барановичская обувная фабрика", Belarus Respublikası, Baranoviçi ş. – "EGO" ticarət markasının yapışqanlı ayaqqabı modellərinin istehsalı. "Мидиса" şirkətlər qrupu yerli ayaqqabı bazarında alıcı tərəfindən bəyənilən "Алми" və "EGO-easy" ticarət markasını təklif edir. |
| | NİNE LİNES | Xüsusi ayaqqabı fabriki<br>Yerləşdiyi yer: Rostov-na-Donu ş.<br>İxtisaslaşma: kişi ayaqqabısı istehsalı. Yalnız təbii materiallar. Rusiya istehsalın ən yaxşı ənənələrini 1998 ildə yaranmışdır. |
| | ORTHOMODA | MMC. Xüsusi təyinatlı ayaqqabıların proektləşdirilməsi mərkəzi. "ОРТОМОДА" 10 sentyabr 2001-ci ildə qeydə alınmışdır. Bu günə Rusiyanın müxtəlif hissələrində 12 istehsalat meydanlarıdır. 2009-cu ildə şirkət hündür daban (9 sm) yüksək estetik rahat ayaqqabı istehsalına başlanmışdır. |

| | | |
|---|---|---|
| | RALT RİNGER | Ralt Ringer – ən tanınmış Rusiya istehsalı olan kişi ayaqqabısı markasıdır. 25-45 yaş arası respondentlər içində onun tanınmağı 72%-dən çoxdur. 2010-cu ildə şirkət populyarlığı hər sezon artan qadın ayaqqabılarını təklif etmişdir. Şirkətin üç xüsusi fabriki (Moskva, Vladimir, Zaraysk), Rusiyada ən iri distribusiya şəbəkəsi və (1800) mağazadan çox və ölkədə ən iri kişi ayaqqabı istehsalı həcmi vardır. RALT RİNGER ən titullu Rusiya ayaqqabı brendidir. Çoxsaylı mükafatlar arasında: "Best Russian Brands", "Супербренд", "Бренд года/EFFİE"-lardır. |
| | RESPECT | Ayaqqabı şirkəti "Респект" Rusiya bazarında ayaqqabı istehsalı və satış üzrə iri və stabil firmalardan biri sayılır. Şirkət kişi, qadın və gündəlik ayaqqabıların geniş çeşidini təklif edir. Modellər dəb tendensiyası xırdalıqlarının analizi əsasında işlənib hazırlanır və daimi yenilənirlər. Bazarda tələbatın daima öyrənilməsi şirkətə bizim kliyentlərimizin bütün arzularını nəzərə almağa imkan yaradır. |
| | S-TEP | Ayaqqabı fabriki "S-tep" (Novosibirsk vilayəti, Berdsk ş.) 2000-ci ildə yaranmışdır. Comfort/outdoor (şəhər və aktiv dinlənmə üçün nəzərədə tutulan komfortlu və möhkəm ayaqqabı) stilində tökmə bərkitmə üsullu qış, yay və demisezon qadın və kişi ayaqqabsı. |
| | SİNTA GAMMA | "Гортер Стар" şirkəti həqiqətən də Rusiyanın ən nüfuzlu qadın ayaqqabısı və üst geyim istehsalçılarından biri sayılır. 1990-ci ildən yerli bazarda işləyərək bizim şirkət çox böyük təcrübə yığmışdır. |

| | | |
|---|---|---|
| | TOFA | Qadın və kişi ayaqqabısının (komfort, klassik, idman, moda) yerli iri istehsalçısı. Xalis süni və kombinasiya edilmiş materiallardan. Orta qiymət diapazonu. |
| | Ticarət evi “ПК-ЗАРА” | Ticarət evi “Пк-Зара” Moskva ayaqqabı fabrikini “Парижская коммуна”nın ekskulyuziv distribyutorudur. “Пк-Зара” Ticarət evi uşaq və böyüklər üçün istehsalçı qiymətiylə yüksək keyfiyyətli ayaqqabıların geniş assortimentinin təklif edir. |

### 1.5. Ayaqqabı sənayesi məhsulunun inkişafı tendensiyasının analizi

Ayaqqabı ən əsas lazımi əşyalardan biridir, və mürəkkəb çeşidli mallardandır. O, geyimin gözəl təşkil olunmuş, uyğun ansamblının vacib elementi kimi çıxış edir. Ensiklopedik lüğətdə ayaqqabının təsnifatını zərərli təsirlərdən ayağı qorumaq üçün nəzərdə tutulan insan geyiminin bir növü kimi verilmişdir.

Ayaqqabının yaranması ayağa zədə və ətarf mühitin xoşagəlməz faktorlarının təsirindən qorumağın təbii tələbatı ilə bilavasitə asılıdır. Buna görə də ayaqqabının ən vacib funksiyalarından biri qoruyucu, əməlidir. Əməli funksiya pəncənin normal fəaliyyəti üçün şərait yaratmağa gərəkdir. Pəncə xəstəliklərinin qabağını almaq zərurəti (profilaktik ayaqqabı), pəncənin itirilmiş funksiyalarının bərpası (ortopedik ayaqqabı) nöqteyi nəzərindən təhhlil edilə bilər.

Kostyum elementi kimi ayaqqabı həmdə estetik funksiyanı yerinə yetirir. Bu müəyyən görünüş effekti və psixoloji dərklə bağlıdır. Ayaqqabının müasir inkişafı bu iki funksiyanın qarşılıqlı əlaqəsi ilə həyata keçirilir.

Son zamanlarda xalq istehlakına verilən tələblər içərisində estetik tələblər xususi əhəmiyyət kəsb edir. Şübhəsiz ki, bu da adamların maddi-rifah halının yaxşılaşdırılması və mədəni səviyyəsinin yüksəldilməsi ilə əlaqədardır. Odur ki, hazırda sənayemizin buraxdığı ayaqqabı məmulatların bədii tərtibatına verilən tələblər daha da yüksəldilmişdir. İstehlakçının istifadə etdiyi əşyalar onda gözəlliyə qarşı maraq oyatmalıdır. «Gözəllik», cəzbedicilik məmulatın formasının uyğunluğu, zövqü

oxşaması, estetik tələblərin əsasını təşkil edir. «Gözəllik» anlayışında məmulatın bütün müsbət xassələri cəmlənir.

Hər ayaqqabıya istehsalat və istehlakda aparıcı rol məxsusudur. Bura yuxarı hissəsi təbii, süni və sintetik dərilər, toxuma materiallar, xəzlər həmin kombinasiya edilmiş materiallardan olan ayaqqabılar aiddir.Hər ayaqqabını dəri - ayaqqabı sənayesi müəsisələri istehsal edirlər.

Ümumrusiya məhsulun klassifikatorunda (UK005) dəri ayaqqabıları 88-ci sinifə aid edirlər. Buda öz növbəsində üstü materialların növünə görə 8 yarımsinifə bölünür: 1) yuft ayaqqabı; 2) xrom ayaqqabı (o cümlədən üst hissəsi zamşa, səndəl yuftu, tük örtüyü ilə); 3) üst hissəsi parça (toxuma) materiallar, keçə, fetr, trikotaj parçadan olan ayaqqabılar; 4) üst hissəsi sintetik parçalardan olan ayaqqabılar; 5)üst hissəsi süni dəridən olan ayaqqabı; 6) üst hissəsi yuft və süni dəri ilə kombinasiya edilmiş ayaqqabı; 7) üst hissəsi xrom və süni və ya sintetik dəri ilə kombinasiya edilmiş ayaqqabı; 8) üst hissəsi tekstil material, keçə, fitr və dəri ilə kombinasiya edilmiş ayaqqabı; Yarımsinifə yaş və cinsə görə 8 qrup daxildir: 1) kişi; 2) qadın; 3) oğlan və s. Yarımbotanikalar üst hissəsi topuqdan aşağı, biçilmiş ayaqqabı üzü isə pəncənin arxa hissəsini tam örtən əsas ayaqqabı növüdür.

## 1.6. İstehlakçıların tələblərinin ödənilməsi

İstehlakçının üstünlük verdiklərinin böyük əhəmiyyəti var. Ayaqqabı qarderobun kifayyət qədər fərqli (orijinal)elementidir. Vacibdir xüsusiyyətlərdəndir ki, ayaqqabı dəbli və parlaq olsun. Pul vermisənsə gərək hər kəs görsün ki, sən nəyə pul ödəmisən. İkinci moment ondan ibarətdir ki, ayaqqabı keyfiyyətli olmalıdır. Çünki qarlı-şaxtalı, benzinli qışa bir neçə sezon yalnız keyfiyyətli ayaqqabı tab gətirə bilər (ona görə ki, ayaqqabı palto, dublyonka deyilki, islandı, qurudu vəssalam). Üçüncü moment, odur ki, ayaqqabı rahat olmalıdır. Komfort çox fikir verilməlidir. Və nəhayət, ayaqqabı baha olmamalıdır.

Ayaqqabı bazarı həddindən artıq doludur. Monarach, Ralf Ringer, Терволина, Эконика. Əlbəttə bu ayaqqabıların keyfiyyəti müxtəlifdir, lakin o çoxdur. Böhran

vəziyyətində bazarın payı artır. Peşəkar pərakəndənin payı 15%-dən yuxarı qalxmır. Onalardan 10% şəbəkədir. Bunlardan, əsasən, hər hansı bir regionda çərçivəsində işləyən şirkətlərdir. Federal səviyyədə bir neçə şirkət işləyir. Yalnız 4-5 şirkətin 20-dən çox şəhərdə şəbəkələri var. Bugün ayaqqabı riteylində lider yoxdur. İri şirkətlərin heç biri ("Monarach", "Ralf Ringer", "Терволина", "Эконика", "Монро", "Центробувь", "Обувь России", Ecco) 1% çox tutmurlar.

Ölkədə ayaqqabı mərkəzlərin çoxu paltar bazarından heç də fərqlənmir. Ayaqqabı mərkəzi lövhəsi altında bir meydançada (yerdə) bir-biri ilə uyğunlaşmayan qeyri mütəşəkkil xırda dükanlar alver edir. Ticarət operatorları möhkəmlənməmiş və pərakəndə satış birləşdirilməmiş vəziyyət dəyişməyəcək.

Məhz - riteyl təchizatı (istehsalı, toplansatış) və yeni kolleksiyaların buraxılması, dükanlardakı çeşidin ətraflı düşünülməsinin təşəbbüskarı olan istehlakçı arasında birləşdirici hissə olmalıdır. Yalnız iri operator istehsalata, təchizata, fason və modeli nəzərə alaraq yeni kolleksiyanın alt detallarının işlənib hazırlanması xərclərini ödəyən dövriyyələrə nail ola bilər.

Ölkə bazarına əsas mal yüzlərlə müxtəlif ölçülü topdan və pərakəndə satış idxalçı şirkətlər tərəfindən tədarük edilir. Onlar hazır ayaqqabıların xarici istehsalçılardan alaraq (əsasən, Cənub-Qərbi Asiyadan), elə yoldaca Rusiyaya gələrək belə kolleksiyaya ad tapıb qoyurlar. Çox vaxt heç bunuda etmirlər. Məhs bu şirkətlər ayaqqabı mərkəzləri kiçik dükanlar, paltar bazarlarını ayaqqabı assortiminti ilə təmin edirlər. Əsasən bu müxtəlif qiymətli eyni tipli ayaqqabılardır. Ən ucuz ayaqqabıdan tutmuş orta bahalığından olan ayaqqabıyadək. Belə idxalatçılara təxminən bazarın 60%-i gəlir düşür. Yerli alıcılar dəbdə olan rəngə artıq reaksiya verməyə öyrəniblər. Onlar həmçinin komfortu təmin edən detallardan xoşlanırlar. Məsələn, velkro lenti (yapışqanlı qayışlar). Bununla belə istehlakçıların zövqü regiondan asılı olaraq kəskin surətdə bir-birindən fərqlənir .Ayaqqabı pərakəndəsinin əsas problemləribndən birini doğurur. Bütün ölkə üçün eyni matrisa assortimentini yaraq mümkün deyil.

Cənub regionlarında (Krasnodar vilayəti, Rostov-na-Donu, Kavkaz) parlaq, parıldayan əşyaları sevirlər. Ümumiyyətlə əhali, avropalılardan fərqli olaraq, həmişə

olduğu kimi yenədə gözəlliyi, parlağlığa eyni tuturlar. Şimala doğru (Moskva, Nijni Novqorod) bu tendensiya zəifləyir. Peterburqda keyfiyyətə təlabat çox yüksəkdir, lakin bu ayaqqabıları ucuz qiymətə əldə etmək istəyirlər. Hətta qonşu olan iki şəhər üstünlük verdikləri mallara görə fərqlənə bilirlər. Kemerovo şəhərində universal gündəlik paltarlara üstünlük verirlər, tələbələrin çox olduğu Tomskda isə gənc geyim tərzinə üstünlük verirlər. Ayaq köklüyü və böyüklüyü alıcılarının anatomik xüsusiyyətidir. Həm də əhali daha çox piyada gəzməyə üstünlük verir. Avropa, Amerika və Asiya Azərbaycan qışı üçün nəzərdə tutulmuş ayaqqabılar Rusiya üçün münasib deyil. Çünki o, güclü şaxtalara uyğunlaşdırılmamış və əksər halda altı sürüşkən olub. Lakin xüsusi olaraq rusiya üçün dünya istehsalçıları satış həcmi yüksək olmadığından öz modellərini tam dəyişməyəcəklər. Nəzəri cəhətdən onlara rəqib Rusiyya istehsalçıları da bilərdilər. Qalan bir neçə şirkətlər müvəfəqqiyətlə duz və nəmişliyə davamlı materiallardan, altlığı möhkəm bərkidilmiş və s. xəzli ayaqqabıları müvəfəqiyyətlə satırlar. Bazarın 3-4%- ni tutmaq üçün təxminən 600-ə yaxın bir marka altında və eyni çeşidli mağazalar açmaq lazımdır. Yaxın müddətdə 600 mağaza açmağa heçkəsin gücü çatmaz. Coğrafi nöqteyi nəzərdən bu çox çətindir. Ələxsusda riteylerlərin əksəriyyəti öz françayzinq proqramını reallaşdıra bilməyiblər.

## 1.7.Ayaqqabı satışı məntəqələri

İnternet mağazları və mağazalar vasitələri ilə alış – veriş günmüzün aktual mövzusudur. Müasir sahibkarlar bucür Web-səhifələrə müraciət edirlər. Bu üsulun bir mənfi cəhəti var, bu da ondan ibarətdir ki, malı canlı və geyərək əynində necə oturacağına baxmaq mümkün deyil.

Adət edilmiş dünya alışverişi üsulu şəhər əhalisinin əksəriyyəti üçün daha əlverişlidir. Bu üsulda malın bütün müsbət və mənfi cəhətlərini qiymətləndirmək, ayaqqabını geyib baxmaq, satıcının məsləhətini almaq olar.

Üzümüzə gələn yaz-yay mövsümündə kişi ayaqqabısının dəbində böyük deşiklər gözlənilmir: formalar lakonikliyə, ayaqqabı qəlibi incəliyə, materiallar

yüngüllüyə yönələcəklər. Zəif klassikayla yanaşı idman üslubu və xüsusən onun elegant təzahürü – dəniz üslubu.

Klassik üslubun dominant konstruksiyasi, əsası bağlı ilə yarımbotinka. Məhs oksfordlar daha populyardırlar. Onlar zərif ayaqqabı qəlibi və nazik altlıq sayəsində nəfis görsənirlər. Oksfordla yanaşı oval yamaqlı yarımbotinka və ya zərif və yüngülləşdirilmiş rezinli loaferlər populyardır. Yayüçün axı əksəriyyət məhs bu konstruksiyaya üstünlük verir. Çünki bağlı ayaqqabıdansa bu cür ayaqqabıları çıxarıb geyinmək daha rahatdır.

Oksforda gözəl alternativ həmişə dəbdə olan rahat makasindir.Onların burun hissəsi dəyirmidir. Onun elastik nazik altlığı torpağa daha rahat ilişmək üçün çıxıntılarla təchiz edilmişdir. Bir çox variantların içində klassik şalvarlarla geyilə bilinən dabanlı makasinlər var.

Aktiv dincəlmə üçün snikerlər təklif olunur. Şəhər tipli krossovkalar. Hamar effektli yağ hopturulmuş nabukdan hazırlanmış modellər çox aktualdır. Velkro lenti ilə iki adda budda kəmərciklə. Həmçinin parlaq sırınmış detallarla ağ dəridən olan 70-ci il tərzində krossovkalar dəbdədir. Bazarda yeni məhsullardan gözəl rahat yarımbotinkalar ilə yağ hopturulmuş nabuklar olan idman üslubunda gibridi təqdim edilmişdir. Onun fərqləndirici cəhəti rəngli zolaqlı ağ qalın altlığıdır. Müxtəlif materialların sayəsində botinkalar orijinal görünür. Gündəlik geyim üçün iri buynuzlu malların xrom dərisindən və poluretandan altlığı olan modellər rahat və əlverişlidir. Dəri altlıqlı zamşa və ya nabukdan olan ayaqqabılar təntənəli tədbirlər üçündür. Kişi ayaqqabısının çeşidinin cürbərcürlüyü müxtəlif rənglərə boyanmış dərilər, sürünən heyvanların dərisinə oxşar naxışların basılması və digər basma naxışlarla əldə edilir. Kişi ayaqqabısı üçün cürbəcür materiallar istifadə olunur: yumşaq və bərk laklanmış, müxtəlif xovlu dərilər, sürünən heyvanlar və balıqların dəriləri, dəmir rənginə boyanmış dərilər. Ayrı - ayrı detalların biçildiyi hamar dəlinmiş dəri yenilikdir. Astar və üst detallar, altlıq və üst detalların, sapların və üstün detalların rəng ahənginin kontrast uyğunluğu çeşid sırasını müxtəlifləşdirməyə imkan yaradır. Ekstravaqantlığı sevənlər üçün kişi ayaqqabı üçün alışılmamış parlaq tonlar təklif olunur: göy, bənövşəyi, açıq bənövşəyi. Lakin çox vaxt onlar iç işləmələr üçün

istifadə olunurlar. Rəngli içliklər və astar dəbdədir. Müxtəlif forma və ölçülərdə deşmə naxışlar, dekorativ konstruktiv tikişlər, əllə edilmiş tikişlərin tətbiqi eyni konstruksiyanı müxtəlif cür mənimsəməyə imkan verir.

Altlığın işlək hissəsinin dekoruna böyük diqqət yetirilir. Məsələn, ayağın ən incidən yerinə rezin taxma ilə qırmızı və ya bej dəridən dekor qoyula bilər. Bu da öz növbəsində ayaqqabıya müxtəlif zahiri görünüş verir.

Süni materiallardan hazırlanan ucuz ayaqqabı orta təminatlı istehlakçı üçün münasibdir. Ayaqqabının istehsalında istifadə edilən çoxqatlı trikotaj komfortlu geyilmə şəraitini, optimal individual razmer seçimini təmin edir. Bu idman və dincəlmə ayaqqabılarının istehsalında istifadə olunur.

Kişi botinkasının modellərinin müxtəlifliyini burun hissəsi müxtəlif formalı olan altlıqlarda istifadə edərək əldə etmək olar. Gündəlik rahat ayaqqabı üçün oval, uzadılmış və yumru, həcmli formalı, "kazak" tərzini sevənlər üçün azacıq qaldırılmış, yaraşıqlı ayaqqabı üçün şişburunlu.

Müxtəlif material, müxtəlif qalınlıq, işlək səthin müxtəlif şəkilli, müxtəlif rəng çalarlarında olan altlıqlardan istifadəsi yarımbotinkaların üst hissəsinin detallarının eyni konstruksiyasına ümumən müxtəlif zahiri görünüş var. Biçilmiş ayaqqabı üzünə, kontrast olaraq üst hissənin rənginə uyğun sapların istifadəsi ilə işləmə tikişinin tətbiqi kişi ayaqqabısının eyni konstruksiyasını müxtəlif cür mənimsəməyə imkan yaradır. Ayaqqabının ayaqda bərkidilməsi üçün modellərə özünə məxsus görkəm verən müxtəlif rəng və enlikdə bağlar, velkro lentli və toqqalı qayışlar, zamoklardan istifadə edirlər.

Müasir ayaqqabı modası kifayət qədər demokratikdir.Və dizaynerdən hazırki tendensiyalara ciddi uyğun olmağı tələb etmir. Çeşidin formalaşdırılmasının əsas məqsədi mümkün qədər çox istehlakçı keyfiyyətli, davamlı ayaqqabını ala bilsin deyə alıcının tələbatını mümkün qədər yerinə yetirməkdir. Çeşidin formalaşması dəbin müasir istiqamətlərini, model və konstruktor xüsusiyytlərini dəyişməsi tendensiyalarının öyrənilməsi əsasında baş verir. 2013 – 2014 sezonunda kişi yarımbotinkalarının istehlakçı üstünlüyü rəsm 1 və əlavə A-da təqdim edilmişdir.

## 1.8. Kişi yarımbotinkalarına olan tələbat həcminin stratifikasiyası

İstehsal olunan məhsulun çeşidi mallar bazarında istehlakçının tələbatına uyğun gəlməlidir. Təklif olunan mala tələbatın intensivliyini əhalini anketləşdirmə ilə müəyyən etmək olar. Bazar və onun inkişaf perspektivlərinin öyrənilməsi çeşidin formalaşması və idarəetməsi ilə bağlı sualların həlli üçün diplom işində sosioloji tədqiqat istifadə olunur.

Şəhərin müxtəlif rayonlarında yerləşən dükanlarda alıcıların sosioloji sorğusu keçirilmişdir. 30 respondent sorğusu edilmişdir. Onlardan 18 nəfəri 20–50 yaş arası kişilər (soruşulanların 40%), 12 nəfər 18-50 yaş arası qadınlardır (soruşulanların 60%). Sorğuların nəticəsi cədvəl 2 verilib.

Sosioloji sorğunun nəticələri

Cədvəl 2.

| Sualın nömrəsi /cavab variantı | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| A | 10 | 9 | 8 | 16 | 15 | 20 | 14 | 20 | 8 | 15 | 8 | 4 |
| B | 6 | 15 | 6 | 8 | 9 | 5 | 9 | 8 | 14 | 5 | 14 | 16 |
| C | 11 | 6 | 3 | 6 | 6 | 5 | 7 | 2 | 8 | 10 | 8 | 10 |

Sorğunun nəticələri işlənmiş, %-i nisbətinə keçirilmiş və cədvəl 3 təqdim edilmişdir.

Sorğunun nəticələri faiz nisbətində

Cədvəl 3.

| Cavab variantı /sualın nömrəsi | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| A | 63,3 | 3 | 6 | 53,3 | 50 | 66,7 | 46,7 | 66,7 | 26,7 | 50 | 26,7 | 13,3 |
| B | 0 | 50 | 30 | 26,7 | 30 | 16,7 | 30 | 26,7 | 46,7 | 16,7 | 46,7 | 53,3 |
| C | 36,7 | 20 | 10 | 20 | 10 | 16,7 | 23,3 | 6,7 | 26,7 | 33,3 | 26,7 | 33,3 |

Əldə olunan məlumata, əsasən, yemək olar ki, istehlakçıların 63,3 % təbii dəridən və 36,7% təbii dəri ilə süni dərinin kombinasiyası ilə istehsal olunmuş

ayaqqabılara üstünlük verirlər. Nəticələr onu göstərir ki, alıcıların 50% yaz-payız, 30% yay və yalnız 20%-i qış çeşidindən ayaqqabılar əldə edirlər. Sorğuda iştirak edənlərin 100%-dən 60%-i qara rəngli, 3 % açıq rəngli, 10% tünd rəngli ayaqqabılar almağa üstünlük verirlər. Sorğuya əsasən dindirilənlərin 53,3% klassik, 26,6% idman, 20% gənc üslubunda alan ayaqqabılar almağa can atırlar. Sorğuda iştirak edənlərin 50%-i 10 mm-ədək, 30% 15 mm-dək, 20%-ə yaxını 20 mm-dək altlığa üstünlük verirrlər. Sorğu iştirakçılarının 66,7%-i öz səslərini bağlı, 16,7% zamoklu (zəncirli), 16,7-i elastik lentlə zamokun (zəncirin) kombinasiyası olan ayaqqabılara öz səslərini vermişlər. İstehlakçıların əksəriyyəti, ayaqqabıda, 46,7%-i, deşmə, şəkillər, 30%-i dekorativ tikişlər, 23,35-i basma şəkilli bəzəklərə üstünlük verirlər. 66,7% materialın fakturasına, 26,7% materialın rənginə, 6,7%-i dekorativ tikişə fikir verirlər. Dindirilənlərin 46,7% ayaqqabının altlığla üst hissəsinin rənglərinin kontraslığını, 26,7% birrəngli ayaqqabıları, 26,7%-i isə astar ilə ayaqqabının üst hissəsinin kontrast rəngli olmağına üstünlük verirlər. Sorğuda iştirak edənlərin 50 %-i onları bütün göstəricilərinə görə qane edən ayaqqabını tapmağa çətinlik çəktiklərini, 33,3% uzunmüddətli axtarışdan sonra buna nail olduqlarını, 16,7%-i üçün isə bunun heçbir çətinliyi olmadığını söyləmişlər. 46,7% Çində, 26,7% Rusiyada, 26,7% digər ölkələrdə istehsal olunana ayaqqabıları əldə edirlər. Dindirilənlərin 53,3% ayaqqabılarına iki gündən bir, 33,3% çirkləndikdə, 13,3% ayaqqabılarına gündə qulluq edirlər.

Yuxarıda deyilənlərdən görünür ki, alıcıların fikrincə natural dəridən istehsal edilmiş yarımbotinka (dindirilənlərin 63,3%), deşmə şəkilli işləmələrlə (sorğuda iştirak edənlərin 46,7%), saya qara rəngli (dindirilənlərin 60%), bağlı (sorğuda iştirak edənlərin 66,7), klassik üslublu (dindirilənlərin 53,3%) ideal modeldir.

Yarımbotinka alışına kişiər böyük maraq göstərir, bütün istehlakçı xüsusiyyətlərinə fikir verirlər; zahiri görünüş, materialın faktura, tərz, istilik, möhkəmlik, təmizlik, pəncənin təhlükəsizliyi. 40-45 yaş arası kişilər dəbli ayaqqabının alınmasına daha az maraq göstərirlər. Lakin ayaqqabının keyfiyyəti bu halda da birinci yerdədir. Suallar və sorğunun nəticələri olan anket B əlavəsində təqdim edilmişdir.

# FƏSİL II. İCTİMAİ - İQTİSADİ FƏSİL

## 2.1 Ekspert fəaliyyətinin inkişafı

Dünya ekspert biznesi yüz ildən artıqdır ki, inkişaf edir. Bu dövr ərzində, əsasını sınaq mərkəzləri və sertifikatlaşdırma orqanları təşkil edən, iri ekspert kompaniyasına xas olan səciyyəvi struktur yaranıb. Kompaniyalar kadrların hazırlığına, yaxşı işlənilmiş, metodik bazaya, bir çox milli xidmətlərin səlahiyyətinə malikdirlər.

Son 15 ildə, Ölkəmizdə təşəkkülün və ekspert fəaliyyətinin inkişaf prosesi gedir və bununla bərabər satışa vasitəçilik edən spesifik bazar yaranır. Son zamanlara qədər rus ekspertlərinin özlərini tanıtdıqlarına baxmayaraq, bu bazar həddən artıq əcnəbi ekspert kompaniyaları ilə tutulmuşdu. Bu bazarda səciyyəvi olan ekspert fəaliyyətini həyata keçirən təşkilat, formalar və üsullar, çox vaxt analoji əcnəbi bazarların təcrübəsini təkrarlandıqlarına baxmayaraq, tədricən öz ölkəsinin səciyyəvi xüsusiyyətlərinin iqtisadi şəraitlərinə uyğunlaşdırılır. Bununla bərabər, müsbət və eləcədə mənfi təcrübələr meydana çıxır.

## 2.2. Bazarlarda sənaye məhsulunun ekspert fəaliyyətinin müasir vəziyyəti

Ekspert xidmətlərinə olan yüksək tələbat və onların həyata keçirilməsi üçün xidmətlərin müvafiq ixtisaslaşdırılmış təşkilatlarının mövcudluğu, sənayedə təşəkkül və ekspert xidmətləri bazarının fəaliyyət prosesini müəyyən edən mühüm şərtləndir. Son illərdə, ölkəmizdə sənayenin inkişafının müsbət dinamikası və onun əsas sahələrində sənaye istehsalının daima artan həcmi, hər şeydən əlavə, istehsal edilən müxtəlif növ məhsulun keyfiyyət ekspertizalarının aparılmasına, istehsalçının müəyyən məhsulunun xüsusiyyətlərinin bəyan etdiyi parametrlərə uyğun gəlməsinin təsdiqinə tələbat yaradır. Sonuncuya əsasən ixrac edilən məhsula səciyyəvidir. Beləliklə, sənaye istehsalının ekspert xidmətlərinin köməyinə daima artan tələbatın mövcudluğu, müvafiq bazarın təşəkkülünə ilkin zəmin yaradır.

Bu tələbatın təmin edilmə imkanlarına gəlincə, ölkəmizdə vəziyyət elədə birmənalı deyil, çünki yerli ekspert kompaniyalarının inkişaf tendensiyası, onların xidmət tələblərinə hələki tam cavab vermir.

Ekspertiza üsulları bu fəaliyyətin həyata keçirilməsi üçün xüsusi lisenziyalarla təsdiq edilmiş rəsmi hüququ olan ixtisaslaşdırılmış kompaniyalar və təşkilatlar tərəfindən həyata keçirilir. Hal - hazırki dövrdə Rusiya Federasiyasında ekspert fəaliyyətini həyata keçirən kompaniyaların sayı onlarladır və artmağa meyillidir. Bununla bərabər, bu kompaniyalar tərəfindən yerinə yetirilən ekspert fəaliyyətinin həcmi dünya ölkələrinə xas olan orta səviyyə ilə belə uyğun gəlmir. Bütün inkişaf etmiş ölkələrin ekspert fəaliyyətinin həcmi təxminən ÜDM (ümumi daxili məhsulun) 0.5% təşkil edir, Rusiyada isə bu milli ÜDM 0.1% azdır.

Yerli iqtisadiyyatın ekspert xidmətləri bazarının spesifik xüsusiyyətlərinin səbəbi ondan ibarətdir ki, hələ indiyə qədər ekspert fəaliyyəti əsasən xarici kompaniyalar və onların təşkilatları tərəfindən həyata keçirilir. Rusiya bazarında fəaliyyət göstərən rusiya kompaniyalarının sayı, ümumi ekspert kompaniyalarının həcminin 20% yaxındır. Həm də nəzərə almaq lazımdır ki, icra edilmiş ekspertizaların həcminə görə bu nisbət daha da az olur.

## 2.3 Ekspertiza xidmətlərinin tarixi inkişaf aspektləri

Ekspert fəaliyyətinin inkişaf etmiş forması, sonralar dünyada məşhur olan SGS (Fransa, 1878), Sybols (ABŞ, 1898) kimi kompaniyaların yarandığı zaman hələ XIX yüzilliyə aiddir. Ekspert fəaliyyəti həm satıcı-alıcı arasında, həm də saxlanma, daşınma, yüklə-boşaltma və s. işlərin aparılmasında olan çoxmənalı izahları zamanı yaranan mübahisəli və konfliktli vəziyyətləri aradan qaldırmaq, eləcədə saxlanılan və daşınan yükün fiziki-kimyəvi, həndəsi və digər hallarının nəzarətinə olan ehtiyacla şərtləşdirilmişdi.

Ekspert və təftiş fəaliyyətinin müasir inkişaf dövrünün səciyyəvi xüsusiyyəti, miqyası genişləndirməkdən əlavə, onun müstəqilliyini möhkəmləndirməkdir. Bu gün ABŞ-da, Avropada, Asiya - Sakir okean regionunda yüzlərlə müstəqil ekspert

kompaniyaları fəaliyyət göstərir. Onların hər biri, çaydan başlayaraq, atom elektrik stansiyalarının avadanlıqlarının təchiz edilməsi üçün imzalanmış onlarla müqaviləyə xidmət edirlər. İstehlakçının, təchiz edilən məhsulun keyfiyyət və kəmiyyətinə olan tələblərinin düzgün və dolğun yerinə yetirilməsinə, məhz bu kompaniyalar nəzarət edirlər Bu kompaniyalar, bəzi ölkələrdə texniki nəzarətin funksiyalarını yerinə yetirirlər, malların sertifikatlaşdırılmasında iştirak edirlər, keyfiyyətin qiymətləndirilməsi üzərində (keyfiyyət sisteminin) işləyib yaxud sertifikatlaşdırırlar.

Keçən əsrin 90-cı illərində, yerli ekspert xidmətlərin bazarının yarandığı ilk dövrdə, o, elə tərtib edilmişdi ki, bu bazarda üstünlüyü xarici ekspert kompaniyaları təşkil edirdi. Rus bazarının ekspert xidmətlərinin yarandığı ilk mərhələdə xarici ekspertlərin kompaniyalarının xeyrinə olan struktur deformasiyası, indiki dövrdə açıq-aşkar yolverilməz bütün ilkin şərtlər hələ tərtib edilməyib, bu bazarın əsas agenti olan ekspert xidmətlərinin yerli istehsalçı hələ ki, çox vaxt xarici ekspert kompaniyaları ilə bərabər rəqabət apara bilmir. Yerli inspekturasına (inspektor nəzarət sistemi) çevrilən milli ekspert fəaliyyətinin müntəzəm təşkilat sistemi yaranmayıb.

Xarici ekspert kompaniyalarının üstün mövqeyi bir sıra səbəblərlə izah edilir. Ən vaciblərindən biri Rusiya Federasiyasında ekspert fəaliyyətinin qurulduğu hüquqi - qanunvericilik əsaslarında olan natamamlıq və ziddiyyətin yüksək dərəcəsidir.

Xarici inspeksiya kompaniyalarına fəaliyyəti üçün tam müstəqil maliyyə, göstərilən xidmətlərin geniş nomenklaturası, çoxlu regionların cəlb olunması xasdır. Buna görə də, bir qayda olaraq, onların tərkibinə personal hazırlığının şəxsi sistemi olan, bankların, investisiya və sığorta kompaniyalarının etibarına malik olan çoxsaylı filial və kompaniyalar daxildir.

Dünyanın aparıcı inspeksiya kompaniyalarında ("Büro Veritas", Saybolt və s.) onların rəhbərliyi digər vəzifələrdən asılı olmayan, kompaniya çərçivəsində səlahiyyəti olan və keyfiyyəti təmin etməkdə məsuliyyət daşıyan vəzifəli şəxsi təyin edir. Bu əməkdaş yüksək vəzifəli rəhbərliklə bilavasitə əlaqəyə malikdir.

Hər kompaniya: son redaktə edilmiş lazımi sənədlərin müvafiq ərazi və müvafiq personalda mövcudluğu ilə; bütün təsdiq edilmiş dəyişiklərin və əlavələrin sənədlərə lazımi qaydada daxil edilməsi və onların müvafiq sahələrə vaxtında çatdırılması ilə; bütöv təşkilat üzrə olan köhnə sənədlərin dövriyyədən çıxarılması və təyin edilmiş vaxt ərzində bir nüsxənin arxivdə saxlanılması ilə; zərurət olduqda daxil edilən dəyişikliklər haqqında digər tərəfləri xəbərdarlıq etməklə təmin edir.

Belə ki, Societe Generale de Surveillance S.A. kompaniyalarının qrupu inspeksiya, sınaq və nəzarət sahəsində, dünyada ən böyük təşkilatdır. SGS Fransada yaranmışdı. Beləliklə, xarici ekspert xidmətləri bazarının strukturunu sxematik olaraq üç əsas dərəcədə təqdim edilə bilər: ümummilli (beynəlxalq), qarşılıqlı əlaqə dərəcəsi, inspeksiya kompaniyaları və onların funksional şöbələrinin dərəcəsi və öz fəaliyyətinə müvafiq olan ekspert texnologiyalarını həyata keçirən ekspert mütəxəssislərin dərəcəsi. Bu dərəcələrdən hər birinin özünəməxsus xüsusiyyətləri var. 1996-cı ilin yanvarında RF Hökumətinin Qərarına əsasən müstəqil rusiya inspektoratının sistemində ixrac edilən malların kəmiyyəti, keyfiyyətinin və qiymətinin ekspert rəyləri, dünya təcrübəsində qəbul edildiyi kimi xarici iqtisadi fəaliyyətin müxtəlif istiqamətləri üzrə (ixrac edilən malların yüklənmədən öncəki inspeksiyası) özünü səriştəli obyektiv inspektor kimi müsbət cəhətdən tanıdan müstəqil inspeksiya kompaniyaları tərəfindən həyata keçirilir.

Son illərdə Rusiya və MDB ölkələrinin ərazilərində “Mosekspertiza”, “Seyuzekspertiza”, “Saxalin-ekspertiza” və s. kimi müxtəlif ekspert kompaniyaları aktiv fəaliyyət göstərirlər. Sənaye ticarət palataları nəznində fəaliyyəti bir qayda olaraq federasiya subyektinin müvafiq ərazisi ilə məhdudlaşdırılmış ekspert təşkilatları var, bu da xarici ticarət əməliyyatlarının ekspert təminatında, müəyyən çətinliklər yaradır. Rusiya Federasiyası Hökumətinin 26.12.95 1267 N Qərarına uyğun olaraq, xarici kompaniyalar 1996-cı ildən müstəqil Rusiya inspektoratı sistemində fəaliyyət göstərirlər.

İndiki dövrdə müstəqil “Mosekspertiza” kompaniyasından başqa: SGS CA (İsveçrə) SGS Vostok (Şərq), SGS-enerqodiaqnostika, İTS (Böyük Britaniya), İTS

Sankt-Peterburq, İTS-Novorossiysk, ZAO “Petrolium Anakvlists” Suybolt ANO “Soyuzekspertiza” TPP “RF”, Voloqda TPP, Sankt-Peterburq TPP, ZADD “Rosinspektorat”, Şərqi Sibir TPP, ZAO “Saxalin-Ekspertiza”, ZAO NPS “Testekspertiza”, OOO “Buryatekspertiza”, Jjevsk PKTB keyfiyyət mərkəzi, “Donekspertiza” firması, yapon inspeksiya kompaniyası “Sin Nixon Kentey Kekay”, Mərkəzi Sibir JTP, OOO “SKS Severo-Zapad” (“Şimal-Qərb”), ANO “Primnefteekspertiza”, OOO “Lars Krosus”, NP “Məhkəmə ekspertlərinin federasiyası”, Rusiya Federasiyasının iqtisadi-ticarət palatası, istehlakçıların hüquqlarının milli müdafiə fondu kimi, kompaniyalarda ekspert qiymətləndirilməsinin ümumi sistemində fəaliyyət göstərməyə icazə alıblar.

İnnovasiya sahəsində Beynəlxalq elmi-texniki mərkəzinə təşkilati, informasiya və ekspert təchizatı üzrə əməkdaşlığa MDB iştirakçı ölkələrinin aşağıdakı iştirakçı təşkilatları daxildirlər:

1.Ukrayna dövlət elmi-texniki və innovasiya ekspertiza mərkəzi

2.Biskek dövlət iqtisadi və sahibkarlıq universiteti nəzdində Elmi-tədqiqat institutu (Qırğız Respublikası)

3. “Rus dünyası” Azərbaycan iş adamları birliyi

4. Qazaxıstan Respublikasının elmi-texniki informasiya Milli mərkəzi

5. İnnovasiya texnologiyalarının Bakı mərkəzi (Azərbaycan Respublikası)

6.Ukrayna iqtisadiyyat nazirliyinin Dövlət informatizasiya və modelləşdirmə elmi-tədqiqat institutu

7. Qazaxıstan Respublikası Təhsil Nazirliyinin iqtisadiyyat və elm institutu

8 .Q.M.Dobrov adına Ukrayna Elmlər akademiyasının elmi-texniki potensial və elm tarixinin tədqiqat mərkəzi

9. Belorus sistemli təhlil və elmi-texniki sferanın informasiya təminatı institutu

10. “Transfert texnologiyalar” Assosiyası (Ermənistan Respublikası)

11. Texnologiyaların innovasiya və transfer Agentliyi (Moldova Respublikası)

Müstəqil “Mosekspertiza” ekspert kompaniyası çoxprofillidir; Pskov, Bryansk, Tolyattı, Tallin, Saxalindəki müstəqil ekspert kompaniyalarını, eləcədə “Milli

İnspeksiya Kompaniyası", "Analitik-ekspert tədqiqatları mərkəzini" və Moskva ali ekspertiza məktəbini öz tərkibinə daxil edir.

Bu sistemdə malların sertifikasiya və ekspertizası aparıldıqda

- malların (məhsulun) nümunələrinin keyfiyyət səviyyəsinin, eləcədə kontrakt öncəsi müstəqil yoxlanılması;
- malların kəmiyyət və keyfiyyətə görə yüklənmə öncəsi və təhvil üzrə müstəqil ekspertizası (inspeksiya);
- müstəqil laborator sınaqlarının, mallara gigiyenik rəylərin və uyğunluq sertifikatlarının (icbari yaxud könüllü sertifikasiya sisteminin) alınması, uyğunluq deklarasiyasının qeydə alınması;
- istehlakçı xüsusiyyətlərinə görə malların keyfiyyətinin səviyyəsini (və yaxud defekt qüsurluluq səviyyəsini) və onların fəaliyyətdə olan NTD-yə uyğunluğunu təyin edən müstəqil ekspertizası;
- malın gömrük məqsədləri üçün (gömrük qiymətlərinin, TN BED kodlarının və s. təyini) müstəqil ekspertizası;
- sığorta kompaniyaları üçün müstəqil ekspertiza sığorta hadisəsi zamanı malların keyfiyyəti və yaxud kəmiyyətinin itirilməsini nəzərə alaraq, sığortaçıya dəyən ziyanın hesablanması;
- malların, işlərin, xidmətlərin mübadiləsi, barter əməliyyatlarını həyata keçirərkən intellektual fəaliyyət nəticələrinin ekvivalentliyinin müstəqil ekspertizası;
- Banklar üçün müstəqil ekspertiza: girov qoyulan əmlakın qiymətləndirilməsi;
- məhkəmə orqanları üçün müstəqil ekspertiza keçirilir.

Təəssüf ki, bu gün dövlət məmurlarının çoxu, müstəqil qeyri-hökumət ekspert və sertifikasiyalı kompaniyalara şərait yaratmaq istəmirlər. Dövlət təşkilatlarının inhisarı məsələn, gömrük orqanlarında aparılan ekspertiza zamanı sazişlərin "dayanmasına", müddətlərin uzadılmasına, bəzən isə gömrük məmurlarının vəzifələrindən sui-istifadəsinə belə gətirib çıxarır.

Keyfiyyəti yüksəltmək problemi kimi, bu problemidə ixtisaslaşdırılmış, qeyri-hökumət ekspertiza sistemini və malların və xidmətlərin sertifikasiyasını yaratma və genişləndirmə yolu ilə həll etmək mümkündür və gərəkdir.

## 2.4. Eskpert fəaliyyəti müasir iqtisadiyyatın inkişaf elementi kimi

Ekspertiza, istehsal edilən malların keyfiyyətinin yüksəldilməsi və onların çeşidlərinin mükəmməlləşdirməsinə xidmət edən effektiv vasitəsidir. O, tədqiqatlara əsasən və sınaq nəticələrini nəzərə alaraq ekspert üsullarını tətbiq edərək, malın istehlak keyfiyyətinin təhlilinin aparılması və qiymətləndirilməsi ilə bağlı olan spesifik fəaliyyət növü kimi çıxış edir. Hər bir fəaliyyət növü kimi, ekspertiza, subyekt, obyekt, kriteriyalar, üsullar prosedur və nəticə kimi bir neçə əsas komponentləri öz strukturuna daxil edir. Malların istehlak xüsusiyyətlərini ekspert komissiyalarını təşkil edən ixtisaslaşdırılmış ekspert-mütəxəssislər aparırlar. Ekspertlər tədqiq olunan malların qruplarını yaxşı bilməli, onların keyfiyyət qiymətləndirilməsi üzrə iş təcrübəsinə malik olmalıdırlar.

Normativ ekspertizanın xüsusiyyəti odur ki, o, ilk növbədə yeni malların həm əsas iş mərhələlərində (texniki tapşırıq, konstruktor-layihə sənədləri, təcrübə nümunəsi) həm də kütləvi istehsal və məhsulun istehlak prosesində (keyfiyyət kateqoriyası üzrə məhsulun atestasiyasınıda daxil edərək) aparılır. Ondan əlavə, operativ ekspertiza müəyyən növ mallar, onların istehsalçıları, istehlak şərtləri, sınaq nəticələri və s. Haqqında olan məlumatların istifadəsini; tətbiq etmənin ixtisar edilmiş müddətini; malların istehlak keyfiyyəti səviyyəsi haqqında ekspertlərin kollektiv rəylərini qabaqcadan nəzərdə tutur. Yuxarıda deyilənlərə əsaslanaraq bu nəticəyə gəlmək olar ki, ekspertiza, mallara nəzarət üçün effektiv vasitəsidir. Malların keyfiyyətinin idarəetməsinin kompleksli sisteminin elementi olaraq, ekspertiza, istehlakçı və keyfiyyətsiz, mənən köhnəlmiş, rəqabətqabiliyyəti olmayan məmulatlar arasında olan maneədir.

İqtisadi sistemin digər növünə keçməsi ilə əlaqədar olaraq, ekspertizada eləcədə onun həyata keçirilmə xüsusiyyətlərində yeni özünə xas (spesifika) xüsusiyyət əmələ gəlir. Malların keyfiyyət ekspertizası əmtəəşünaslıq sahəsində onilliklərdir müvəffəqiyyətlə fəaliyyət göstərdiyinə baxmayaraq müasir reallıqlar, bu proseslərə bəzi xüsusiyyətləri daxil edir. Ekspertizanın rolu dəyişir. Yerli və xarici mallar arasında olan rəqabətin müasir şərtləri rusiya məhsullarına qarşı yeni

keyfiyyət standartlarını irəli sürür. Nəzərə almaq lazımdır ki, indiki dövrdə ekspertiza texniki tapşırıqdan başlayaraq yaradılma, satış və istismar, eləcə attestasiya aparılma mərhələlərinə qədər, məmulatın bütün həyat səklini əhatə edir. Ekspertiza, yerli malları nəinki ölkə, eləcədə dünya bazarında ən keyfiyyətli səviyyəyə qaldıran, ölkə mallarının tənzim vasitəsi olmalıdır.

Yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, Rusiyada istehsal edilən ayaqqabının keyfiyyət ekspertizası, onun rəqabətqabiliyyətliliyinin artmasına, müəssisələrin işinin gəlirliliyinə (rentabellik) güclü təsir göstərir.

## 2.5 Bazarda əmtəə məhsulunun və onların inkişaf tendensiyalarının, yerli və xarici təcrübəsinin fəaliyyəti

Ayaqqabının keyfiyyəti-onun təyinatına uyğun olaraq müəyyən tələbatları təmin edən, onun yararlılığına səbəb olan xüsusiyyət məcmusudur. Ayaqqabının keyfiyyət göstəricisi, onun keyfiyyəti və onun yaradılması, istismarı və istehlakının müəyyən şərtlərinə uyğun olan bir və ya bir neçə xüsusiyyətlərin kəmiyyət xarakteristikasından ibarətdir.

Müəssisədə istehsal edilən ayaqqabının keyfiyyətini təyin etmək üçün:

- prinsip etibarilə yeni (mütərəqqi) məmulatlar, ümumilikdə onların həcmi;
- məhsulun çeşidinin yenilənmə koefisiyenti;
- istehsal edilən məhsulun sertifikat alınmış hissəsi;
- istehsal edilmiş zay malın hissəsi;
- mövsüm mallarının endirim qiymətlərlə satılan nisbi həcmi və s. kimi ümumi göstəricilər sistemini tətbiq edirlər;

Ayaqqabının keyfiyyətini təmin edən üsullar. Müəssisədə ayaqqabı keyfiyyətinin idarəetmə mexanizminin əsas elementləri: məmulatın standartlaşması və sertifikatlaşması; keyfiyyətin daxili sistemi; standartlar, normalar və qaydalara riayət etməyə dövlət nəzarəti; keyfiyyətin istehsalat daxili və texniki nəzarəti.

Müəssisədə ayaqqabının keyfiyyətini, istehsalat daxili texniki nəzarət-texniki nəzarət şöbəsi (TNŞ) tərəfindən həyata keçirilir. TNŞ-ın əsas məqsədi, texniki-normativ sənədlərində müəyyən edilmiş lazımi keyfiyyət səviyyəsini təmin etməkdir.

Müəssisənin fəaliyyət qiymətləndirilməsində, maddi vəsaitlərin əsas növlərinin tətbiqinin təhlili mühüm əhəmiyyət kəsb edir. O, istehsal xərclərində xüsusi çəkiyə malik olan, yaxud daha aztapılan (defisit) materialların növləri üzrə aparılır. Təhlil, materialların faktiki sərf edilməsi və plan üzrə sərf edilməsinin müqayisə yolu ilə aparılır. Təhlil mənbələri kimi, biznes-planın, mühasibat hesabı, şöbələrin hesabatının və s. məmulatlarından istifadə edilir.

Ayaqqabı, komvol, tekstil və digər sənaye müəssisələrində maddi vəsaitlərin istifadəsinin effektivliyinin təhlili xammalın səmərəli istifadəsi ilə planın faktiki faizinin müqayisəsi yolu ilə aparılır. Bu faizin aşağı düşməsi xammal və materialların qeyri - effektivliyinin istifadəsini sübut edir.

Təhlil təsilatı və məhsulun maya dəyərinin endirilməsi üçün məmulatın bir nüsxəsinə sərf olunan materialın təhlili aparılır. O, plan və hesablamaların kalkulyasiyasına (malın maya və satış qiymətinin hesablanması) əsasən yerinə yetirilir.

Ən geniş yayılmış təhlil, materialların faktiki məsrəf ilə təyin edilən məsrəf normalarının müqayisəsidir. Xammal və materialların təyin edilmiş məsrəf normalarına riayət edilməsi, onların səmərəli istifadəsini sübut edir. Xammalın və materialların israfına, texnologiya və resepturanın pozulması, istehsalın və maddi-texniki vəsait təminatının natamam təşkili, səmərəsiz biçilmə, xammalın istifadəsində nəzarətin olmaması, materialların digər aşağı keyfiyyətli materiallarla əvəzlənməsi və s. səbəb ola bilər. Əgər məmulatın hazırlanmasında bir neçə növ xammal və materiallardan istifadə edilirsə, onda rezervlərin hesablanmasında onların bütöv növlərinin kompleksdə olması lazımdır. Rezervlər, plandan az istehsal edilmiş məhsulun miqdarı, müəssisənin topdan satış qiymətlərinə əsasən təyin edilirlər.

Keyfiyyətin yaxşılaşdırılması üçün görülən tədbirlərin əsas mənbəyi, istehsal edilən zay məhsullar haqqında məlumatlar, daxil olan reklamasiyalar

(malın pis və ya çəkişinin əskik olduğuna görə irəli sürülən tələb), geyilməsi zəmanət müddətinə davamsız olan ayaqqabı haqqında məlumatlardır. Tədbirlərin görülməsində, adətən yalnız öz müəssisənin təcrübəsindən deyil, eləcədə qonşu fabriklərin qabaqcıl təcrübəsindən, elmi-tədqiqat institutlarının tövsiyələrindən, eləcə də xarici təcrübələrdən yararlanırlar. Eyni zamanda müəssisə qarşısında daimi təftiş, fəaliyyətdə olan texnologiyanı yenidən qiymətləndirmə, istehsalatda daha da müasir və effektiv texnoloji proseslərin tətbiq etmə məsələləri durur. Alınmış analitik materiala (ölçülən göstəricilərin məlumatları da daxil edilərək) və bəyənilmiş yəni modellərə əsasən və yuxarıda dayanan təşkilatların tapşırıqlarına əsaslanaraq, məhsulun keyfiyyət göstəricilərinin kompleks planı hazırlanır.

İstehsalçıların, məhsulun keyfiyyətinə verdiyi reaksiya, keyfiyyətin idarəetmə vacibliyinə diktə edən əks əlaqədir.İstehlakçılar tərəfindən məhsulun keyfiyyətini dəyərləndirən informasiya vasitələri müxtəlifdi. Keyfiyyət sisteminin idarəetməsinin əsas maddi informasiya daşıyıcısı kimi, texniki və digər xarakterli sənədlər xidmət edir. Ümumilikdə keyfiyyət üzrə olan sənədləri plan və direktiv, normativ və texnoloji, texniki nəzarətə görə, hüquq nöqteyi - nəzərindən və hesabat və məlumat bölürlər.

Hesabat və məlumat sənədləri-ağır vəziyyətdə olan sahələrdə qərar qəbul etmək üçün lazımi məlumatla təmin edirlər:

- Planı keyfiyyət göstəricilərinə uyğun yerinə yetirmək;
- Texnoloji tədqiqatlar və qüsurların öyrənilmə;
- Yaxşı keyfiyyətli işə görə fəhlələrin həvəsləndirilmə;
- Zay mala görə maddi məsuliyyətə cəlb edilmə;
- Alıcı və tədarükçü arasında olan qarşılıqlı maliyyə əlaqələri
- Müəssisənin işini, məhsulun keyfiyyəti baxımından iqtisadi qiymətləndirmə
- Ayaqqabı üçün qüsurların əhəmiyyət təsnifatı:

Nəticədə, keyfiyyətlə idarəetmənin əsas məqsədi-qüsurların yaranmasının qarşısını almaqdır.

Böhranlı-nəzərə çarpan, DOVST hüdudlarından çıxan qüsurlar və belə ayaqqabı istifadə edilə bilməz. İri - ayaqqabının istismar müddətinin ixtisarına və onun zahiri görünüşünün pisləşməsinə təsir edə bilirlər. Kiçik-ayaqqabının möhkəmliyinə və uzunömürlülüyünə təsir etmirlər, lakin zahiri görünüşə həddən artıq təsir edir.

Cüzi - yalnız mütəxəssislərin təftişi zamanı aşkar edilə bilərlər.

Ayaqqabıda olan qüsurların əmələ gəlməsinin əsas səbəbləri:

- texnoloji prosesin pozulması;
- keyfiyyətsiz əsas və köməkçi materialların istifadəsi;
- dəzgahların qeyri-kafi işçi və təchiz edilmə və alətlərin pis vəziyyətdə olması;
- məmulatın konstruksiyasının qeyri-texnolojiliyi;
- təşkilati rejimin pozulması;
- hazır məhsulun pis saxlanılması, qablaşdırılması və daşınması;

Ayaqqabıdakı qüsurları:

- yaranması gözlənilə bilən qüsurlara;
- yaranması əsassız olan qüsurlara;
- gizli qüsurlar-böyük hissəsini böhranlı və iri olanlara bilmək olar.

Bütün aradan qaldırılmayan qüsurlar əslində böhranlıdır.

İstehsal edilən ayaqqabının keyfiyyətinin təhlili.

- onun istehlak xüsusiyyətlərinin modellərinin və fasonlarının, əhalinin tələblərinə uyğun olmasının üzə çıxarılmasını;
- ən yaxşı yerli və xarici nümunələri nəzərə alaraq, ayaqqabının keyfiyyət səviyyəsinin təyin edilməsini;
- istehsal edilən məhsulun ölkələrə, texniki şərtlərə, mövcud nümunələrə və fabrik daxili texniki sənədlərə görə uyğunsuzluğunun üzə çıxarılmasını;
- finiş nəzarəti və reklamasiya və keyfiyyətsiz aktlarından əlavə, laborator təhlillər nəticəsində qüsurların müəyyən edilməsini
- məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün görülən tədbirlərin

daha da efektiv istiqamətlərinin təyin edilməsini;

- ayaqqabının keyfiyyətinin yaxşılaşdırılması üçün görülən tədbirlərin məqsədəuyğunluğunu texniki və iqtisadi cəhətdən əsaslandırılmasını təmin etməlidir.

Ayaqqabı üçün qırx keyfiyyət standartı mövcuddur. Bu o deməkdir ki, dükanda yaxud bazarda satılan hər cüt ayaqqabı keyfiyyət nəzarətinin qırx maddəsindən keçməlidir. Bunu etmək məhsulun istehsalçısının borcudur. Lakin, piştaxtalarda olanlar, keyfiyyət tələblərinə çox vaxt cavab vermir.

Müstəqil istehlak ekspertiza mərkəzinin (MİEM) məlumatlarına görə, bir ayda ayaqqabının keyfiyyətinə görə 300 nəfərə yaxın insan öz narazılığını bildirir. Nəzarətdən keçən ayaqqabının 70% çoxunun istehsal qüsuru var. Məhsulların 50% yaxını İtaliyada istehsal edilib, 30% istehsalçı - ölkə və firmanın adı göstərilməyib, ayaqqabının 10% Çində istehsal ediblər. Qalan 10% Avropa, Amerika və Rusiyanın payına düşür.

MİEM-nin ekspertiza nəticəsində aldığı məlumatlar.

MİEM-nin ekspertiza nəticəsində aldığı məlumatlar.

Istehlakçı ölkələr üzrə keyfiyyətsiz ayaqqabının bölgüsü

50% İtaliya

10% Çin

30% ölkənin adı göstərilməyib

10% digərləri

Əgər satıcı ilə və yaxud ayaqqabının keyfiyyətinə görə mübahisələr yaranırsa, bu mübahisənin MİEM-nin müstəqil ekspertləri həll edə bilər. Öncə ekspert vizual olaraq ayaqqabını nəzərdən keçirir, onun keyfiyyətini qiymətləndirir və öz rəyini bildirir, əlavə tədqiqatlara ehtiyac olduqda isə ayaqqabını laboratoriyaya göndərirlər. Sonra ekspertiza akt tərtib edirlər. Əgər qeydə alınmış qüsur istehsal qüsurdursa, keyfiyyətsiz ayaqqabının sahibi ekspert nəticəsi ilə satıcıya rahatlıqla müraciət edə bilər. Qüsur hər zaman istehsal xarakteri daşımır. Təxminən on hadisədən birində qüsur ayaqqabının səhv istismarından yaranır.

## 2.6 Ayaqqabı sənayesinin müasir bazarının vəziyyətinin təhlili

Çoxsaylı problemlərə baxmayaraq rusiya ayaqqabılarının keyfiyyəti eyni növdə olan idxal edilən ayaqqabılardan üstündür. Ayaqqabı bazarlarında aparılan yoxlamalar göstərir ki, xaricdən istehsal edilən ucuz ayaqqabıların 80% rusiya normaları və standartlarına cavab vermirlər. buna baxmayaraq, yerli ayaqqabı istehsalı artmır, idxal payı isə artmaqda davam edir.

Rusiya üçün problem-ekspert rəylərinə əsasən, idxal edilən ayaqqabının ümumi həcminin 60%-80% təşkil edən kölgəli idxaldır. Mütəxəssislərin fikrinə əsasən, yerli istehsalçıların, Rusiya ərazisinə qeyri-qanuni ayaqqabı idxalından müdafiə olunmaması, rusiya istehsalının həcminin aşağı düşməsinin ən əhəmiyyətli amillərindən biridir. Bu problem uzun illər ərzində hələ də öz həllini tapmır. Həqiqətəndə, rusiya bazarında yüksək keyfiyyətli ayaqqabı azdır. Aşağı keyfiyyətli məhsulun çox hissəsi Asiyadan gətirilir. Çox vaxt onlar baha qiyməti olan keyfiyyətli firma ayaqqabısı kimi nümayiş etdirilir.

Son vaxtlar, Rusiya ayaqqabı bazarı tez-tez dünyada olan saxta malların praktikasının köhnəlmə sübutlarını nümayiş edir. Saxta mallar üçün materiallar və furnitur (hər hansı bir istehsalatda, sənətkarlıqda lazım olan yardımçı materiallar) xaricdən gətirilir, ayaqqabının tikilişi isə yerindəcə aparılır. Çox vaxt keyfiyyətsiz ayaqqabını xaricdən gətirirlər. İlk baxışdan, məhsul çox keyfiyyətli görsənə bilər. Tanınmış xarici firmaların loqotipləri ilə bəzədilə bilər. Lakin bir çox göstəricilərə görə onlar saxta hesab ediləcək. Buna görə də, ayaqqabının mənşəyinin vasitəli xüsusiyyətlərinə fikir vermək lazımdır - onlar hətta qablaşdırma və xidmət etmədə nəzərə çarpır. Özünə hörmət edən istehsalçı markalama ölçüsü yüksək dəqiqliklə yerinə yetirilir. İstehsalçı firmaların çoxu "avropa" ölçü şkalasından (məsələn, 4 1/2) edirlər. Çox vaxt mükəmməl olan qablaşmaya diqqət yetirmək vacibdir. Yaxşı ayaqqabı cütü həmişə prospekt-kitabça, çox vaxt istehsalçı firmanın həmin ayaqqabı cütünün hazırlandığı material və ona qulluq üsulları haqqında məlumat haqqında məlumat bukletləri ilə təchiz edilir.

İndiki dövrdə, dünyada ildə 13 mlrk. cütdən artıq ayaqqabı istehsal edilir. Avropada təxminə 1,2 mlrd. cüt istehsal edilir. Avropa ölkələrindən ilk onluğa

yalnız İ spaniya və İtaliya daxil olmağı bacarıblar. “Almaniyada istehsal olunub” markalı ayaqqabı, bir qayda olaraq Portuqaliyadakı sifarişlərə görə istehsal edilir. Dünya ayaqqabı istehsalının yekun nisbətində böyük olmayan payına baxmayaraq, keyfiyyətli ayaqqabı istehsalı sahəsində, Avropa liderlik edir.

Ölkəmizə ayaqqabının bütün çeşidlərini idxal edir, lakin təchizin çox hissəsi ayaqqabının biçilmiş üzlük, altlıq, dabandan ibarətdir. İtaliya ayaqqabısı hər zaman İtaliyada istehsal edilmir, lakin bu alıcıların aldadılması sayılmır, çünki bu istehsalın daha ucuz işçi qüvvəsi olan ölkələrə köçürülməsinin nəticəsidir. Qonşu xarici ölkələrdən ayaqqabı idxalı artıb. Ukrayna Rusiyaya əsasən yay kişi və qadın ayaqqabıları, eləcədə yuft fəhlə ayaqqabısı idxal edir. Moldova-dəri üzlük və PVX altlıqlı ev ayaqqabısı idxalında liderdir. Belorus istehsalçı və idxalçıları arasında, Almaniya ilə müştərək olan bir neçə müəssisə var ki, keyfiyyətli davamlı gündəlik ayaqqabı təqdim edirlər.

Demək olar ki, dünyanın bütün aparıcı ayaqqabı istehsalçıları Asiya ölkələrində yerləşir. Ayaqqabı sənayesinin hər ikinci cütü Çində istehsal edilir. Ayaqqabı istehsalının və idxalının lideri olan bu ölkə, dəri ayaqqabının bütün çeşidlərini Rusiyaya idxal edirdi. Onun idxalının yarısı rezin yaxud polimer materialdan olan altlıq, dəri üzlüklü yüngül ayaqqabılardır.

Lakin, qeyd etmək lazımdır ki, idxalçı ölkələr hər zaman istehsalçı ölkə olmurlar. Məsələn, Finlandiya və Almaniya, Rusiyaya digər ölkələrin ayaqqabısını, öz istehsal etdiyindən 10-12 dəfə artıq satır. Çox vaxt “müştərək” istehsal edilən ayaqqabı idxal edilir, məsələn, dizayn-Fransa, altlıq-İtaliya, içi-çinindir. Çin öz ayaqqabılarını Rusiyaya digər ölkələrin vasitəsi ilə, bir başa idxaldan 2-4 dəfə çox edir.

Rusiyanın ayaqqabı bazarı ondan çox iri müəssisə və bir çox mini müəssisələrdən ibarətdir. Dünya ayaqqabı istehsalının 0.3% rusiya sənayesinin payına düşür, bu səbəbdən də dünya istehsalının liderləri ilə ciddi rəqabət haqqında danışmağa ehtiyac yoxdur. Yerli istehsal olan dəri ayaqqabı 40 ölkəyə idxal edilir. Nəzərə almaq lazımdır ki, yerli ayaqqabının həcminin 30%-dan çoxu İtaliyaya göndərilir (bu ölkəyə uşaq ayaqqabısı, uzun boğaz qadın çəkmələri və kişi botinkaları idxal edilir).

Ukraynaya təbii xəzli qadın və kişi ayaqqabıları satılır. Ənənəvi partnyor olan Qazaxıstana, Rusiya fəhlə ayaqqabısı idxal edilir.

Rusiyada ayaqqabı istehsalı uzun illərdir eyni səviyyədədir, istehlak bazarının tələbatı 70% yaxın olan idxalının hesabına ödənir. İdxalın ümumi həcmi, ixrac göstəricisindən artıqdır. Bu tendensiya olduğu kimi qalır və bunun səbəblərindən biri əhalinin alıcılıq qabiliyyətinin artmasıdır.

Rusiya ayaqqabı sənayesinin əsas problemləri idxal edilən ayaqqabıya olan aşağı gömrük vergiləri və Rusiyanın ayaqqabı bazarında kontrabanda (qaçaq) və kontrafakt (saxta) məhsulların böyük payıdır (40% yaxın).

Ayaqqabı özündə utilitar (faydalı) və estetik xüsusiyyətlər daşıyır, yəni müasir insan üçün həm rahatlıq və davamlılıq, həm də istismar edilərək ayaqqabının zahiri görünüşü vacibdir. Bir qayda olaraq, insanın əlinin altında bir neçə cüt ayaqqabı olur.

Bu gün ayaqqabı rahat olmalıdır, lakin bununla bərabər ayaqqabının cazibədarlığı əsas tendensiyadır. Lakin yaddan çıxarmaq lazım deyil ki, klassik üslubun tərəfdarlarının sayı hələ də kifayət qədərdir və seriya istehsalında həmin növ alıcıları nəzərə almaq lazımdır.

Kişi yarımbotinkalarının çeşidlərini daha dəqiq planlaşdırmaq üçün, istehlakçıların verdiyi üstünlükləri üzə çıxarmaq məqsədilə, marketinq tədqiqatları aparmaq vacibdir.

Ayaqqabının əsas xüsusiyyətlərindən biri yüksək məlumata malik olan rəng qammasıdır. Rəng malın mənimsənilməsini təşkil edir. Rəng üstünlüyünün fərqlənməsi yaş kateqoriyası ilə təyin edilir. Gənclər parlar, doymuş rənglər (qırmızı, ağ, sarı) seçirlər. 28-30 yaşından böyük olan kateqoriya daha təmkinlik, konservativ qara, qəhvəyi, bej rənglərinə üstünlük verir.

Ayaqqabının mənimsənilməsində əsasən burun hissəsinin fasonu təşkil edir. Burun hissə darlaşmış danda modelə zəriflik, yumru isə konservativliyi qeyd edir.

Ayaqqabının hazırlanmasında istifadə edilən materialların fakturası da ayaqqabının mənimsənilməsinə təsir edir. Təbii üzlüklü dəri səthi adi göründüyü üçün, belə üzlüklü ayaqqabı gündəlik istifadə edilən kimi qəbul edilir. Məxmər

zamş yaxud habuk, modelə incəlik verir. Lak dərili ayaqqabı bir mənalı olaraq ziyafət ayaqqabısı kimi qəbul edilir. Buna əsaslanaraq, belə nəticəyə gəlmək olar ki, materialın fakturasının bütövlükdə ayaqqabının mənimsənilməsinə güclü təsiri var.

Bəzək materiallarının (qayışlar, toqqalar, dekorativ tikişlər və s.) köməyi ilə ayaqqabının üst elementlərinin köməyi ilə modelin xarakterini dəyişmək, texnoloji prosesə dəyişikliklər etmədən bu və ya digər detalları nəzərə çarpdıraraq zahiri görünüşü ümumilikdə dəyişmək mümkündür. Əlavə elementlər ayaqqabıya böyük effektlər verməyə kömək edirlər.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, kişi yarımbotinkalarının çeşidlərini tərtib edərkən rəng, materialların fakturası, ayaqqabının forması, dekorativ elementlər kimi amilləri nəzərə almaq lazımdır. Səmərəli yanaşma bu növ məhsulun istehsalını yüksək - gəlirli və rəqabət qabiliyyətli etməyə imkan verəcək.

## 2.7. Kişi yarımbotinkalarına olan tələbatın həcminin müəyyən edilməsi

Kişi yarımbotinkalarını, modelinə olan tələbatı öyrənmək üçün 30 respondentin anketləşməsi keçirildi. Anketləşmənin nəticələrinə görə, cavab təhlillərinə əsasən “tələbatın tədqiqinin” histoqramı tərtib edildi. Anketləşmədə yaş kateqoriyası 25-45-dək olan repsondentlər iştirak edirdilər. Histoqramda sorğunun nəticələri əks etdirilir. Onlardan belə nəticə çıxarmaq olur ki, daha gənc nəsil hər il dəbin cərəyanlarına uyğun olan yarımbatinkaları almağa üstünlük verir. Respondentlərin fikrinə əsasən, yarımbotinkalar, istehsal texnologiyasına riayət edilərək keyfiyyətli materiallardan hazırlanmalıdır, individuallığa üstünlük verilir, məhsulun qiyməti çox vaxt əhəmiyyətli deyil. Ayaqqabı istehsalçısı istehlakçını maraqlandırır. İstehlakçı import istehsalı ayaqqabıya üstünlük verir, çünki hesab edir ki, xaricdə ayaqqabı istehsalının texnologiyası yüksəkdir və həmin ayaqqabı modanın cərəyanlarına uyğundur.

Yarımbotinkanın alınmasına, kişi böyük maraq göstərir, bütün istehlak xüsusiyyətlərinə: zahiri görümüşə, materialın fakturasına, formaya, üsluba, istilik

keçirməyə, davamlılığa, gigiyenikliyə, ayağın təhlükəsizliyinə fikir verir. Dəbli ayaqqabının alınmasına 40-45 yaşında olan kişilər az maraq göstərirlər, lakin ayaqqabının keyfiyyəti birinci yerdə olaraq qalır (cədvəl 1).

Anket sorğusuna əsasən 15 sual seçilib və keçirilən anketləşməyin nəticələrinə əsasən histoqram tərtib edilib.

